Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

24 SENTYABR 2019-cu il

№ 169 (4067)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYAN AMULSARA GÖRƏ BÖYÜK TƏZYİQ ALTINDA OLDUĞUNU ABŞ-da DA DİLƏ GƏTİRDİ...

■ səh. 5 ■

Rusiya Ermənistanla dəmir yolu sazişindən imtina edə bilər ■ səh. 5 ■

Qarabağ təcavüzkarlığı Ermənistan üçün daha böyük problemə çevrilir ■ səh. 9 ■

Deputatlarla bağlı belə hadisələr baş verəndə... ■ səh. 3 ■

Dollarla bağlı bəzi dünya prosesləri manata təzyiqi gücləndirir... ■ səh. 6 ■

Bakı marketlərində "Choco Pie" şokoladları, bəzilərinin hətta üstündə erməni yazıları... ■ səh. 7 ■

Məktəblərdə müəllimlərin şagirdlərə əlavə tapşırıqları - Dərsliklər proqramı tam əhatə edirmi... ■ səh. 10 ■

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi dələduz "general" Firdovsi Ələkbərovu ifşa etdi... ■ səh. 2 ■

Silikon canlar almağa, adam öldürməyə başlayır... ■ səh. 15 ■




■ səh. 3 ■

## «Qarabağ təyyarələri» ABŞ səmalarında Paşinyanın «lobbi oyunlarını» üç qəpiklik elədi...





## Əli Kərimlinin trollar dəstəsinin qapalı «WhatsApp» söhbətləri faktla ifşa olunur

■ səh. 4 ■

## Böyük Rusiya biznesi Ermənistanı tərk edir - Moskva İrəvana qarşı yeni cəza mexanizmlərini işə sala bilər...

■ səh. 8 ■

## DİN Baş İdarəsinin ifşa etdiyi saxta «general»ın yeni əməlləri...

■ səh. 4 ■

■ səh. 10 ■

### Təhsilin keyfiyyət qiymətləndirilməsi üzrə beynəlxalq konfransın Bakıda keçirilməsinin səbəbi...



■ səh. 12 ■

### Hər kəsin yaşamadığı ömür - polis ömrü...



■ səh. 7 ■

### Kommersiya bankları Mərkəzi Bankın uçot-faiz əməliyyatlarını indiyə qədər saya salmayıblar, bundan sonra necə olacaq...



■ səh. 11 ■

### Yumurta mafiyası yenidən baş qaldırır?...



■ səh. 15 ■

### Saxta balı bazara dartmaq sezonu başladı - 395 nümunədən 25-i saxta çıxdı





## Ermənistan ordusu Qarabağda daha bir Azərbaycan əsgərini vurdu...

**Müdafiə Nazirliyi Azərbaycan tərəfindən cəbhə xəttində təxribat törətməsi barədə erməni KİV-lərində yayılan məlumata münasibət bildirib.**

Müdafiə Nazirliyindən "Trend"in sorğusuna cavab olaraq bildiriblər ki, sentyabrın 22-də cəbhəboyu zonada yerləşən hərbi hissədə əsgər Abdulrəhmanov Ramin Şövkət oğlu yolu azaraq düşmənlə üzbəüz mövqelər arasındakı ərazidə ermənilər tərəfindən vurulub.

Əsgərin nəşinin ərazidən təhlükəsiz təxliyəsini təmin etmək məqsədilə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinə müraciət olunub.

Ermənistanın KİV-də guya Azərbaycan tərəfinin cəbhə xəttində təxribat törətməsi barədə yayılan məlumatlar yalandır.

Beynəlxalq Qızıl Xaç Komitəsi cəbhə xəttində öldürülən Azərbaycan Ordusunun hərbi qulluqçusunun meyitinin qaytarılması ilə bağlı dialoqa başlayıb.

Komitənin Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova "Trend"ə bildirib ki, təmsil etdiyi qurumun məsələdən xəbəri var və hazırda bununla bağlı əlaqədar qurumlarla ikitərəfli konfidensial dialoq aparır.

## DSX-nin sərhəd zastavasına silahlı hücum... Yaralı baş leytenant cinayətkarlardan birini tərksilah etdi, digəri isə Cəlilabadda yaxalandı

**20 sentyabr tarixində, saat 21:05 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Cəlilabad-Yardımlı avtomobil yolunda Buravar kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində içərisində 2 nəfərin olduğu avtomobilin əraziyə yaxınlaşması, avtomobildən bir nəfərin düşərək özünü şübhəli aparması və ətrafı müşahidə etməsi sərhəd naryadının diqqətini cəlb edib.**



DSX-nın mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, şübhəli şəxs gizlin yerdən bağlama götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edərkən sərhədçilər tərəfindən ona "dayan" əmri verilib, lakin o, əmrə tabe olmayaraq ərazidən uzaqlaşmağa çalışıb. Sərhəd naryadı tərəfindən yaxalanması zamanı şübhəli şəxs müqavimət göstərib, baş leytenant Allahverdi İsmayılova bıçaq ilə xəsarət yetirib. Buna baxmayaraq sərhədçi zabit şücaət nümayiş etdirib və cinayətkarı tərksilah edərək saxlayıb.

Hadisə zamanı xəsarət almış sərhədçiyə təxirəsalınmaz tibbi yardım göstərilib, vəziyyəti qənaətbəxşdir.

Saxlanılan şəxsin 1975-ci il təvəllüdlü Cəlilabad rayon sakini Əliyev Elşən Dövlət oğlu olması müəyyənləşdirilib, əraziyə atılmış bağlamaya baxış zamanı içərisində 1 kq 125 qram "marixuana", 1 kq 10 qram "tiryək" və 450 qram "heroin" narkotik vasitə aşkarlanaraq götürülüb.

İdarə etdiyi avtomobil ilə hadisə yerindən qaçmış digər şəxsin saxlanılması istiqamətində təxirəsalınmaz əməliyyat-qoşun tədbirləri həyata keçirilib, ərazi dərhal qapadılaraq ətrafda axtarış aparılıb. Nəticədə hadisə yerindən qaçmış şəxs Cəlilabad rayonunun Buravar kəndinin yaxınlığında saxlanıb. Həmin şəxsin 1979-cu il təvəllüdlü Naxçıvan MR, Babək rayon sakini Quliyev Samir Vidadi oğlu olması müəyyənləşdirilib, avtomobilin içərisindən 55 qram "tiryək" narkotik vasitə və şəxsi əşyalar aşkarlanaraq götürülüb.

Qeyd olunan fakt üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Birinci vitse-prezident Mehriban Əliyeva Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının iştirakçılarına müraciət etdi...

**Birinci vitse-prezident Mehriban Əliyeva Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının (IAEA 2019) iştirakçılarına müraciət ünvanlayıb.**



"Trend"in məlumatına görə, müraciəti konfransın açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Müraciətdə deyilir: "Sizi Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının açılışı münasibətilə səmimi qəlbdən salamlayıram. Belə mötəbər tədbirin ölkəmizin paytaxtında yenidən keçirilməsindən məmnunluğumu bildirirəm.

Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir. Müxtəlif bilik və bacarıqların yoxlanılması zamanı nəticələrin obyektiv qiymətləndirilməsi və müasir ölçmə metodlarından istifadə edilməsi böyük əhəmiyyətə malikdir. "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusuna həsr olunan hazırkı konfrans bu baxımdan təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılmasına, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyaların yaradılmasına öz töhfəsini verəcəkdir.

Azərbaycanın təhsil sistemində son illərdə bir sıra uğurlar qazanılmışdır. Biz postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdənik. Sistemin fəaliyyəti cəmiyyətimiz və qiymətləndirməni təşkil edən forumlar tərəfindən indi də yüksək dəyərləndirilir. Ölkəmizdə, eyni zamanda, beynəlxalq qiymətləndirmənin inkişaf prinsiplərinə əsaslanaraq lazımi araşdırmalar aparılmış və bu istiqamətdə normativ-hüquqi baza təkmilləşdirilmişdir.

Qərar qəbuletmə prosesində qiymətləndirmənin etibarlılığı və daha düzgün qərar qəbul etmək üçün müvafiq qiymətləndirmə üsullarının müəyyən edilməsi aktual məsələlərdəndir. Əminəm ki, 55 ölkədən 300-dən artıq ekspertin qatıldığı konfransınızda qiymətləndirmə sisteminin müxtəlif aspektləri ilə bağlı geniş müzakirələr yeni qiymətləndirmə texnologiyalarının səmərəli tətbiqində və standartların formalaşdırılmasında mühüm rol oynayacaqdır.

Hamınıza cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram".

# Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi dələduz "general" Firdovsi Ələkbərovu ifşa etdi...



**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən birgə həyata keçirilən əməliyyat tədbiri nəticəsində insanların etibarından sui-istifadə edərək dələduzluq yolu ilə onları aldadan şəxs saxlanıb.**

Araşdırma zamanı müəyyən edilib ki, əvvəllər dəfələrlə məhkum olunmuş paytaxt sakini Firdovsi Ələkbərov general formasında özünü İnsan Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Komitə adlı (International Human Rights Defence Committee) beynəlxalq təşkilatın Paris Departamenitinin Mərkəzi Asiya Layihəsi üzrə rəhbəri kimi təqdim edib, təşkilat tərəfindən ona general rütbəsi verildiyini deyərək insanları buna inandırıb. Daha sonra o, ayrı-ayrı zərərçəkənləri təşkilatın Azərbaycan nümayəndəliyində rəhbər vəzifələrə təyin etdirəcəyini, onlara general, polkovnik və digər rütbələr, həmçinin diplomatik pasport, eləcə də təşkilatın nişanının veriləcəyini deyərək onları aldadıb. Bu üsulla F.Ələkbərov zərərçəkənlər İ.Ağayevdən 24976 manat, T.Musayevdən 3000 manat və E.Axundzadədən 6000 manat pulu dələduzluq yolu ilə ələ keçirib. Əvəzində isə zərərçəkmiş şəxslərə həmin təşkilatın adından qanunsuz hazırlanmış saxta diplomatik pasport, saxta vəsiqə və digər saxta sənədlər satıb.

F.Ələkbərovun Nəsimi rayonunda yerləşən ofisinə baxış zamanı təşkilatın adından qanunsuz hazırlanmış özünə aid saxta diplomatik pasport, saxta xidməti vəsiqə, müxtəlif saxta sənədlər, iki dəst general forması və digər maddi sübutlar aşkar edilərək götürülüb. Qeyd edək ki, F.Ələkbərov zərərçəkənlərdə inam yaratmaq məqsədilə müxtəlif sosial şəbəkələrdə səhifələr yaradaraq general formasında şəkillərini də paylaşıb.

Faktla bağlı Baş İdarədə F.Ələkbərov barəsində Cinayət Məcəlləsinin 178.2.2 və 178.2.4 (xeyli miqdarda ziyan vurmaqla təkrar dələduzluq) və 320.1 (saxta sənəd hazırlama və satma)maddələri ilə cinayət işi başlanılıb.

Hazırda F.Ələkbərovun cinayət əlaqələrinin müəyyən edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir. Bu şəxsin əməllərindən zərər çəkmiş başqa vətəndaşlar Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarziə İdarəsinə müraciət edə bilərlər.

## "Azad Həmfikirlər" layihə çərçivəsində növbəti tədbiri Göyçayda keçirdi...

**"Azad Həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında QHT-rə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə həyata keçirdiyi "Məişət zorakılığına məruz qalan qadınların maarifləndirilməsi və hüquqi yardım göstərilməsi" layihəsinin icrasını davam etdirir.**

Layihə çərçivəsində növbəti tədbir Göyçay rayonu H.Əliyev Mərkəzində baş tutub. Tədbiri Mərkəzin direktorui Zemfira Əliyeva açaraq, keçirilən layihənin aktuallığı barəsində öz fikirlərini bildirib. Daha sonra "Azad Həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri Samirə Mustafayeva bildirib ki, layihənin məqsədi məişət zorakılığına məruz qalan qadınların maarifləndirilməsi və onlara hüquqi yardımin göstərilməsindən ibarətdir. Məişət zorakılığının hüquqi və sosial aspektləri üzrə ekspertlər Mətanət Əsgərova və Ruhiyyə Aslanova mövzu ilə bağlı maarifləndirici məlumatlar veriblər. Tədbirin sonunda zorakılığa məruz qalmış qadınlara məxfilik qorunmaqla hüquqi yardım göstərilib.

**Ermənistanın Baş naziri Nikol Paşinyan 22 sentyabrda Los-Ancelesə səfər edərək, erməni icmasının keçirdiyi mitinqdə çıxış edib. Yarım milyonadək erməninin yaşadığı Los-Anceles vilayəti ABŞ-da ermənilərin ən çox yaşadığı yerdir.**

# "Qarabağ təyyarələri" ABŞ səmalarında Paşinyanın "lobbi oyunlarını" üç qəpiklik elədi...




## Mübariz Əhmədoğlu: "Bu, Paşinyanın Los-Anceles səfərinin effektini aşağı saldı"

Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan verilən məlumata görə, bunu nəzərə alaraq, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasəti barədə yerli əhalini geniş şəkildə məlumatlandırmaq üçün həmin gün Los-Anceles səmalarına ingilis dilində böyük hərflərlə "Karabakh is Azerbaijan! End the Occupation" (Qarabağ Azərbaycanındır! İşğala son qoy!) şüarını daşıyan "təyyarələr" qaldırılıb. Bütün günü Los-Anceles üzərində dövrə vuran şüar yerli əhali tərəfindən böyük maraqla qarşılanıb.

Bundan əlavə, üzərində Qarabağ həqiqətlərini əks etdirən rəqəmsal plakatların olduğu xüsusi maşınlar gün ərzində Los-Ancelesin müxtəlif guşələrini dolaşaraq, böyük sayda şəhər sakininin Ermənistanın işğalçılıq siyasəti barədə məlumatlanmasına səbəb olub. Plakatlarda Azərbaycanın 20 faiz ərazisinin işğal olunduğu, 1 milyonadək soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi, işğal altında olan ərazilərimizdə Azərbaycan mədəniyyətinə qarşı soyqırımı həyata keçirildiyi, Xocalı soyqırımı və digər məsələlər barədə məlumat verilib.

Onu da qeyd edək ki, Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev səfər ərəfəsində Los-Anceles şəhər və vilayət rəhbərliyinə Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirən bir ölkənin Baş nazirinin səfərinə etiraz edən məktublar göndərib. Həmçinin, N.Paşinyanın Los-Ancelesə səfəri ABŞ mətbuatında da tənqid olunub.

Bütövlükdə, bu cür adekvat addımlar Paşinyanın Los-Anceles səfərinin effektinin aşağı düşməsində, ümumən erməni yalanlarının ifşasında necə rol oynayır? Hansı ki, keçirilən sözügedən aksiya Paşinyan və erməni lobbisi üçün gözlənilməz zərbə oldu.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, ermənilərin kompakt yaşadıqları bir şəhərdə belə bir tədbirin keçirilməsi çox mühüm hadisədir: "Çox yaxşı haldır ki, ermənilərin kompakt yaşadıqları bir məkanda belə bir təbliğat xarakterli aksiyalar keçirilir. Bildiyim qədər, Los-Ancelesdə birinci dəfədir belə bir aksiya keçirilir. Bu şəhər Kaliforniya ştatına aiddir. Orada ermənilər böyük saya, güclü nüfuza malikdirlər. Kifayət qədər maliyyə imkanları olan ermənilər məhz Los-Ancelesdə yaşayırlar.

*"ABŞ-da ermənilərin sıx yaşadıqları bir şəhərdə Azərbaycan tərəfi belə bir aksiya reallaşdıra bilirsə, bu çox ciddi uğurdur"*

Kaliforniyadan seçilən senator və konqresmenlər erməni lobbisinin təsiri altında olurlar. Kaliforniya ştatı da ABŞ-ın ən böyük ştatıdır. İndi ABŞ-da ermənilərin sıx yaşadığı bir şəhərdə Azərbaycan tərəfi belə bir aksiya reallaşdıra bilirsə, bu çox ciddi uğurdur. Xüsusən o da nəzərə alınmalıdır ki, etiraz innovativ formada təşkil olunub. Yəni hökmən deyil müəyyən şəxsləri ora yığıb hansısa şüar səsləndirəsən. Əsas məqsəd o idi ki, Dağlıq Qarabağın Azərbaycana məxsus olmasını ictimaiyyətin diqqətinə çatdırmaq mümkün olsun.

Azərbaycan da buna çox yüksək səviyyədə və innovativ formada nail oldu. Əlbəttə, bu, Paşinyanın Los-Anceles səfərinin effektini aşağı saldı. Xüsusən nəzərə almaq lazımdır ki, dünya mətbuatı Paşinyanın sözügedən səfərini izləyirdi. Onlar da bütün bunları gördülər. Yaxşı olardı ki, bundan sonra da Paşinyan və digər erməni rəsmilərinin səfərləri zamanı Azərbaycan belə aksiyalar təşkil etsin. Azərbaycanın haqq mövqeyi səsləndirilsin. Kaliforniyanın digər şəhərlərində də belə aksiyaların keçirilməsinə ehtiyac var".

***Vidadi ORDAHALLI***

---

**Azərbaycan Parlamentinin bəzi deputatlarının xoşagəlməz əməlləri ilə bağlı mediada və sosial şəbəkələrdə müzakirələrin aparıldığının şahidi oluruq. Söhbət onların səsləndirdiyi hansısa fikrə olan münasibətdən getmir. Hər halda, bu istiqamətdə müzakirələrin olması normaldır.**

# Deputatlarla bağlı belə hadisələr baş verəndə...




Çünki deputatlar da fərddir və onların hansısa fərqli fikirləri səsləndirməsi qəbahət sayıla bilməz. Söhbət konkret əməllərdən gedir. Məsələn, bir qrup deputat xaricdə oteldə yeyir-içir, axırda hesab çox gəldiyindən, nağd ödəniş edə bilmir. Deputat vəsiqəsini girov qoyur ki, növbəti gün hesabı "bağlayanda" vəsiqəni götürsün. Analoji məsələ ilə bağlı başqa bir hadisə barədə neçə gündür mediada müzakirələr gedir. Deputatların bu cür xoşagəlməz hərəkətləri bütün çılpaqlığı ilə ortaya qoyulandan sonra vətəndaşlar onların istefasını, geri çağırılmasını tələb edirlər. Maraqlıdır, bənzər hadisələrlə bağlı qanunvericilik nə deyir? Deputatın səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi hansı prosedur üzrə həyata keçirilməlidir?

## Mehman Muradlı: "Bu məsələ Milli Məclisin iclasında müzakirə edilərkən deputatın ittiham edildiyi cinayətdə təqsirli olub-olmaması məsələsi müzakirə edilə bilməz"

Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə bildirdi ki, deputatlıq nomenklatur vəzifə deyil: "Yəni oradan istefa vermək elə sadə deyil. Ümumiyyətlə, deputatın istefa verməsi ilə bağlı seçilən termin doğru deyil. Loru dildə desək, deputatın toxunulmazlıq hüququ ləğv edilə bilər. Bu da cinayət törətməklə bağlı ciddi dəlillər ortaya qoyularsa. Qalan ictimai qınaq kəsb edən hərəkətlərlə bağlı Milli Məclisin İntizam Komissiyası xəbərdarlıqlar edə bilər. Komissiyanın hansı cəzalar verə biləcəyi qanunvericilikdə öz əksini tapıb.

Milli Məclisin Daxili Nizamnaməsinin 22-ci maddəsi deputatın toxunulmazlığına xitam verilməsi qaydasını müəyyənləşdirir. Bildirilir ki, Konstitusiyanın 90-cı maddəsinin II hissəsinə görə, Milli Məclisin deputatının toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Milli Məclisin qərarı ilə xitam verilə bilər. Bu barədə təqdimata Milli Məclis onun daxil olduğu vaxtdan 7 gün müddətində baxır.

Qeyd edilir ki, Milli Məclisin sədri, bir qayda olaraq, deputat haqqında təqdimatı əvvəlcə parlamentin İntizam Komissiyasına göndərir və komissiyada bu məsələyə baxılır. Komissiya təqdimata dair rəy qəbul edir. Rəydə deputat toxunulmazlığına xitam verilib-verilməməsi barədə İntizam Komissiyasının qənaəti söylənir. Nizamnamənin müvafiq maddəsinə əsasən, Milli Məclis bu barədə məsələlərə, bir qayda olaraq, deputat toxunulmazlığına xitam verilməsi barədə təqdimat olan deputatın iştirakı ilə baxır. Bu məsələ Milli Məclisin iclasında müzakirə edilərkən deputatın ittiham edildiyi cinayətdə təqsirli olub-olmaması məsələsi müzakirə edilə bilməz. İclasda iştirak edən deputatlar yalnız deputat toxunulmazlığına xitam verilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatında kifayət qədər əsasların olub-olmamasını aydınlaşdıra bilərlər və bu məqsədlə Azərbaycan Respublikasının Baş prokuroruna suallar verə, deputat toxunulmazlığına xitam verilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Milli Məclis tələb olunan səs çoxluğu ilə deputat toxunulmazlığına xitam verə bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Əli Kərimlinin trollar dəstəsinin qapalı "WhatsApp" söhbətləri faktla ifşa olunur

**Məlum olduğu kimi, uzun müddətdir mətbuatda və sosial şəbəkələrdə AXCP sədrinin troll şəbəkəsi saxladığı, həmin trolların vahid təlimatla hərəkət etdiyi, onun tapşırıqlarını yerinə yetirdiyi barədə informasiyalar yayılır. Ancaq bütün bunlara baxmayaraq, Əli Kərimli və tərəfdarları hər vəchlə bunu təkzib edirlər.**





## *Məhərrəm Zülfüqarlı: "Ortaya çıxan məlum faktlar göstərdi ki, həqiqətən də təlimatlar partiya sədrindən gəlir"*

Onlar hər dəfə iddia edirlər ki, guya onların bu işlərlə heç bir əlaqəsi yoxdur. Ancaq ortaya çıxan yeni-yeni faktlar bütün bunların tam əksini göstərdi.

Məsələ ondadır ki, partiyadaxili troll şəbəkələrindən birinə nəzarət edən şəxslərdən biri də AXCP Ali Məclisinin üzvü Rəşid Turabovdur. Onun bununla bağlı səsyazısı yayılıb. Məlum olub ki, partiyadaxili troll şəbəkələri qapalı "WhatsApp" qrupları vasitəsilə idarə olunur. Bütün məxfi təlimatlar da məhz bu qapalı "WhatsApp" qrupları vasitəsilə trollara çatdırılır.

Səsyazısından da göründüyü kimi, R.Turabov konkret adlar çəkərək, cəbhəçiləri feminizmdə, AXCP-nin ənənələrinə qarşı çıxmaqda ittiham edir, onları konkret seçim qarşısında qoyur: "Ya bu partiyada qalın, ya da biz işimizi bilək. Əgər sizi görmürüksə, siz nə üçün varsınız? İsgəndər bəy deyir mən feministəm, çıxır gedir dənizə. Sən burada cəbhəçi ola bilirsənsə ol, ola bilmirsənsə get harada istəyirsən feminist ol. Əgər sizdən bir şey olmayacaqsa, gedim yeni üzvlərə vaxtımı sərf edim, bəlkə onlarla nəsə alındı. Bezdirmisiniz artıq, mən niyə hər dəfə xəbərdarlıq yazmalıyam".

Bütün bunlar bir daha onu göstərir ki, sosial şəbəkələrdə mövcud olan troll şəbəkəsi kimlərdən ibarətdir və ən başlıcası, bu şəbəkəni kimlər idarə edir. Sözügedən səsyazısı əyani şəkildə göstərdi ki, AXCP sədri tərəfindən həmin troll şəbəkəsi idarə olunaraq təlimatlandırılır.

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, radikal müxalifət, xüsusən də AXCP rəhbərliyi sosial şəbəkələrdəki troll şəbəkəsindən geniş istifadə edir: "Ümumiyyətlə, AXCP qara piar kampaniyasından hər zaman istifadə edib. İstər seçki dövründə, istərsə də seçki olmayan vaxtlarda. Sosial şəbəkələrdə mövcud olan troll şəbəkəsinin də adıçəkilən partiya rəhbərliyi tərəfindən idarə olunması yeni deyil. Ancaq onlar hər dəfə bunu inkar edirdilər. Ortaya çıxan məlum faktlar göstərdi ki, həqiqətən də təlimatlar partiya sədrindən gəlir. Hansısa məlumat yayılırsa və ona münasibət olanda aydın olur ki, bu kimi kampaniyalar idarə olunur. Son illər onlar sosial şəbəkələrdən qara piar məqsədilə çox istifadə edirlər. Diqqətçəkən məqam həm də ondan ibarətdir ki, onlar sosial şəbəkədən sui-istifadə edirlər.

*"Son illər onlar sosial şəbəkələrdən qara piar məqsədilə çox istifadə edirlər"*

Əvvəllər sosial şəbəkələr olmayanda öz qəzetləri vasitəsilə qaralama kampaniyası aparırdılar. Qəzetlərə də təlimat AXCP sədrindən gəlirdi. İndi də bunu sosial şəbəkələr vasitəsilə həyata keçirirlər. Ona görə də hesab edirəm ki, qanun çərçivəsində müəyyən qurumlar bunu araşdırmalıdırlar".

***Vidadi ORDAHALLI***

# DİN Baş İdarəsinin ifşa etdiyi saxta "general"ın yeni əməlləri...

**İlk dəfə olaraq "Bakı-Xəbər" qəzetinin barəsində araşdırma apararaq yazdığı cinayətkar şəbəkənin ifşa olunaraq, rəhbərinin cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı rəsmi məlumat yayılıb.**



Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və Nərimanov Rayon Polis İdarəsi əməkdaşları tərəfindən birgə həyata keçirilən əməliyyat tədbiri nəticəsində insanların etibarından sui-istifadə edərək dələduzluq yolu ilə onları aldadan şəxs saxlanılıb.

Araşdırma zamanı müəyyən edilib ki, əvvəllər dəfələrlə məhkum olunmuş paytaxt sakini Firdovsi Ələkbərov general formasında özünü İnsan Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Komitə adlı (İnternational Human Rights Defence Committee) beynəlxalq təşkilatın Paris Departamentinin Mərkəzi Asiya Layihəsi üzrə rəhbəri kimi təqdim edib, təşkilat tərəfindən ona general rütbəsi verildiyini deyərək insanları buna inandırıb. Daha sonra o, ayrı-ayrı zərərçəkənləri təşkilatın Azərbaycan nümayəndəliyində rəhbər vəzifələrə təyin etdirəcəyini, onlara general, polkovnik və digər rütbələr, həmçinin diplomatik pasport, eləcə də təşkilatın nişanının veriləcəyini deyərək onları aldadıb. Bu üsulla F.Ələkbərov zərərçəkənlər İ.Ağayevdən 24976 manat, T.Musayevdən 3000 manat və E.Axundzadədən 6000 manat pulu dələduzluq yolu ilə ələ keçirib. Əvəzində isə zərərçəkmiş şəxslərə həmin təşkilatın adından qanunsuz hazırlanmış saxta diplomatik pasport, saxta vəsiqə və digər saxta sənədlər satıb.

F.Ələkbərovun Nəsimi rayonunda yerləşən ofisinə baxış zamanı təşkilatın adından qanunsuz hazırlanmış özünə aid saxta diplomatik pasport, saxta xidməti vəsiqə, müxtəlif saxta sənədlər, iki dəst general forması və digər maddi sübutlar aşkar edilərək götürülüb. Qeyd edək ki, F.Ələkbərov zərərçəkənlərdə inam yaratmaq məqsədilə müxtəlif sosial şəbəkələrdə səhifələr yaradaraq general formasında şəkillərini də paylaşıb.

Faktla bağlı Baş İdarədə F.Ələkbərov barəsində Cinayət Məcəlləsinin 178.2.2 və 178.2.4 (xeyli miqdarda ziyan vurmaqla təkrar dələduzluq) və 320.1 (saxta sənəd hazırlama və satma) maddələri ilə cinayət işi başlanıb.

Hazırda F.Ələkbərovun cinayət əlaqələrinin müəyyən edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir. Bu şəxsin əməllərindən zərərçəkmiş başqa vətəndaşlar Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə müraciət edə bilərlər.

Qeyd edək ki, saxta "general"ın əməllərindən zərərçəkənlərdən biri də Beynəlxalq Diaspor Mərkəzinin sədri İsmayıl Ağayevdir. O, "Bakı-Xəbər"ə açıqlamasında qaldırılan cinayət işi ilə bağlı zərərçəkən kimi tanındığını təsdiqləyib: "Əvvəla qəzetinizə və şəxsən bir prinsipial jurnalist olaraq sizə dərin minnətdarlığımı bildirirəm. Çünki ilk dəfə bu şəbəkənin qanunsuz fəaliyyəti ilə bağlı sizin apardığınız araşdırma ilə tanış oldum. Bundan sonra bir az şübhələnməyə başladım. Mən bu təşkilata Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq məqsədilə üzv olmuşdum. Həbs olunan Firdovsi Ələkbərov mənə bildirmişdi ki, o mərkəzi qərargahı Parisdə olan təşkilatın Avrasiya bölməsinin rəhbəridir. Məndən də Azərbaycan nümayəndəliyinin yaradılması adı ilə 30 minə yaxın pul alıb. Sonra gördüm ki, nümayəndəlik qeydiyyatdan keçmir. Sizin də əvvəlki yazınızda qeyd etdiyiniz kimi, təşkilata heç də müsbət reputasiyası olmayan adamların cəlb edilməsi mənim şübhələrimi artırdı. Fransada yaşayan dostlarımı təşkilatın hüquqi ünvanına göndərdim. Məlum oldu ki, belə bir qurum orda yoxdur. Sən demə bu yalnız virtual aləm üzərindən qurulan bir təşkilat olub. Firdovsinin bir dostu da Kalininqradda yaşayır. Mən ona zəng etdim dedim ki, bəs bəh-bəhlə təriflədiyiniz təşkilat niyə öz "generalının" həbs edilməsi ilə bağlı bir münasibət bildirmir?".

İsmayıl Ağayev deyir ki, Firdovsi Ələkbərov tərəfindən heç bir ali təhsili olmayan, heç vaxt rütbə daşımamış adamlara da yüksək hərbi rütbələr verilib: "Siz təsəvvür edin ki, İsmayıl Zalov adlı bir nəfərə güc strukturları, məhkəmələrdə monitorinq aparmağa icazəsinin olması ilə bağlı vəkalətnamə verib. Mən bu cür əməllərə qəti etiraz etdim. Çünki mən DİN-də rəhbər vəzifələrdə işləmişəm. Bilirəm ki, belə ola bilməz. Bundan sonra Azərbaycandakı işləri idarə edən Firdovsi və İsmayıl Zalov mənimlə tərs getməyə başladılar. Hətta İsmayıl Zalova etdiyi bəzi lazımsız hərəkətlərlə bağlı etiraz edəndə məni müxalifətçi adlandırdı. Guya məni doğru olmayan bu məlumatlarla şantaj etmək istəyirdi. Əminəm ki, Firdovsi Ələkbərov bu əməlləri tək törətməyib. Söhbət mütəşəkkil dəstədən gedə bilər. Bir şeyə də əminəm ki, onlar tərəfindən aldadılan yalnız 3 nəfər deyil. Yəqin ki, zərəçəkənlərin sayı artacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan hakimiyyəti üçün baş bəlasına çevrilən Amulsar məsələsində Paşinyan qərar qəbul edə bilmədiyini bir daha etiraf edib. Ermənistan Baş naziri budəfəki etirafını ABŞ-da edib. O, Los-Ancelesdə bildirib ki, bununla bağlı üzərinə ciddi basqılar və təzyiqlər var: "Bəziləri deyirlər ki, Amulsar dağdır, dünya dağılsa da, o dağ olaraq qalmalıdır.**

# Paşinyan Amulsara görə böyük təzyiq altında olduğunu ABŞ-da da dilə gətirdi...

## *Elşən Mustafayev: "Amulsarla bağlı təzyiq altında olduğuna dair fikirləri Paşinyanın məhz ABŞ-da bildirməsi təsadüf deyil"*



Başqa bir hissə isə deyir ki, Amulsar mütləq istismar olunmalıdır. Mən isə deyirəm ki, bu məsələdə sona qədər gedib, həqiqətin nə olduğunu ortaya qoymaq lazımdır. Görək ki, bu həqiqətən ekoloji fəlakət vəd edir, yoxsa yox? Mən bu suala de-fakto və deyure doğru cavab almalıyam. Hətta mənim kabinetimin bəzi üzvləri otağıma girib deyirdilər ki, yatağı təcili bağlamaq lazımdır, yoxsa minlərlə adam məhv olacaq. Sonra məlum oldu ki, danışdıqlarının hamısı yalandır".

Paşinyan bildirib ki, Amulsarın həlli həm ekoloji, həm də iqtisadi cəhətdən onun üçün vacib əhəmiyyət kəsb edir: "İstismarçı "Lidian" şirkəti də deyir ki, həmin yatağı lazım olan standartlara uyğun şəkildə işlədəcəklər. Məni daha çox narahat edən cəmiyyətin mövzuya olan radikal münasibətidir. Mənə elə gəlir ki, hökumət heç bir təzyiq altında qərar qəbul etməməlidir".

Faktiki olaraq, Paşinyan təzyiq altında olduğunu etiraf edib. Bundan hansı nəticəni çıxarmaq olar?

Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, artıq bir ilə yaxındır Ermənistanda Amulsar qızıl mədəni ətrafında baş verən qalmaqal səngimək bilmir: "Ermənistanda Amulsar qızıl yatağının istismarına kütləvi etiraz aksiyaları başlayıb. Bir neçə gün əvvəl isə Cermuk şəhəri, Qndevaz və Keçut kəndlərinin sakinləri yürüş keçiriblər. Bundan başqa, Cermukda fəaliyyət göstərən mehmanxana və kurortların əməkdaşları, eləcə də məktəblilər tətil elan edərək, onlara dəstək nümayiş etdiriblər. Ötən ay Baş nazir Nikol Paşinyan Amulsar dağında mədənin işləməsinə dair əhali ilə görüşərək, onların fikirlərini öyrənib. O, ekologiya üçün ciddi təhlükə olarsa, mədəndə işin dayandırılacağına söz verib. Amma indi bu vədindən imtina etmək məcburiyyətindədir. Bu isə əhalinin kəskin narazılığına səbəb olub. Amulsar qızıl mədəninin işlənməsi məsələsi Ermənistanın ən böyük problemlərindən biri olaraq qalır. Artıq mədənin işlənməsinin böyük ekoloji problemlərə səbəb olacağından narahat olan kütlələr İrəvanda da etiraz aksiyası keçirirlər. Bu aksiyalar problemin kəskin olduğundan xəbər verir. Çünki söhbət mədənin yaxınlığındakı yaşayış məntəqələrində yaşayan on minlərlə yerli sakinin həyatından gedir. Onlar bu mədənin işlənməsinin qurbanları sayılırlar. Səbəb isə mədənin ciddi ekoloji ziyanlara səbəb olmasıdır. Bu bir daha göstərir ki, Paşinyan ölkəni idarə etməkdə çətinlik çəkir. Öz dilettantlığını ortaya qoymuş olur. Çünki bir vaxtlar Amulsarın istismarının mümkünsüzlüyünü məhz o deyirdi. İndi ölkəyə pul gətirmək üçün əvvəlki mövqeyindən imtina edir. Amulsarla bağlı təzyiq altında olduğuna dair fikirləri Paşinyanın məhz ABŞ-da bildirməsi təsadüf deyil. Bununla o, ABŞ-a demək istəyir ki, Amulsar mədəninin ABŞ şirkətləri tərəfindən işlənməsində maraqlı olmayan xarici qüvvələr var.

*"Demək istəyir ki, Amulsar mədəninin ABŞ şirkətləri tərəfindən işlənməsində maraqlı olmayan xarici qüvvələr var"*

Prosesi də onlar idarə edirlər. Amulsar doğrudan da Paşinyanı ciddi dilemma qarşısında qoyub. Hətta onun hakimiyyətinə son qoya biləcək bir həddə çatıb".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Rusiyadan Ermənistana yönəlik təzyiq kampaniyası özünü iqtisadi sahədə də göstərməyə başlayıb. Rusiyanın "Qazprom" şirkətinin qiymət siyasəti ilə bağlı məsələ tam həll edilməyib. Məlum olduğu kimi, 2019-cu ilin 1 yanvar tarixindən "Qazprom" şirkəti Ermənistana satdığı qazın qiymətini (min kubmetr üçün) 150 dollardan 165 dollara qaldırıb. Bununla yanaşı, əhali üçün qaz tarifinin qiyməti dəyişməyib.**

# Rusiya Ermənistanla dəmir yolu sazişindən imtina edə bilər



İndi isə Ermənistan iqtisadiyyatının üzərində növbəti qara buludlar toplaşır. Belə ki, Rusiyanın nəqliyyat naziri "Rusiya dəmir yolları" şirkətinin Ermənistanın dəmir yolu şəbəkəsini idarə etməsi barədə müqaviləni vaxtından əvvəl ləğv edəcəyini deyib. Hazırda müqavilənin ləğvi üçün variantlar üzərində iş gedir.

Rusiyanın nəqliyyat nazirinin müavini Vladimir Tokarev müsahibəsində bildirib ki, Ermənistanın yaratdığı vəziyyət nəticəsində "Cənubi Qafqaz dəmir yolu" Qapalı Səhmdar Cəmiyyəti normal fəaliyyət göstərə bilmir: son 10 ilin sənədləri götürülüb, sübut edilməmiş ittihamlar irəli sürülüb və heç bir təminat verilməyib.

Bildirilir ki, 2018-ci ilin avqust ayında sözügedən şirkətdə 19 min dollar vergidən yayınma ittihamı ilə axtarış aparılıb. Bundan sonra isə dekabr ayında Ermənistanın nəqliyyat nazirinin müavini şirkətdə aparılan axtarışlar zamanı qanun pozuntularını gizlətdiyi üçün tutduğu vəzifədən azad edilib.

Ermənistanın İstintaq Komitəsi isə məlumat verib ki, "Cənubi Qafqaz dəmir yolu" şirkətinin son 10 il ərzində fəaliyyətini tədqiq edir və 230 milyon dollarlıq sərmayənin effektivliyi yoxlanır. 2019-cu ilin sentyabr ayında Paşinyan bildirdi ki, yoxlamalar Ermənistanın maraqları çərçivəsində aparılır.

"Cənubi Qafqaz dəmir yolu" Qapalı Səhmdar Cəmiyyəti "Rusiya dəmir yolları" Açıq Səhmdar Cəmiyyətinin törəmə şirkətidir və Ermənistanın dəmir yollarını idarə edir. Ermənistanın dəmir yolu infrastrukturu 2008-ci ilin 13 fevral tarixində imzalanan müqaviləyə əsasən sözügedən şirkətə güzəştli idarəetmə əsasında verilib. Güzəştli idarəetmənin müddəti 30 ildir və şirkətin bu müddəti daha 10 il artırma hüququ var.

Yaranmış bu vəziyyət nəyi söyləməyə əsas verir və bunun sonu nə ilə nəticələnə bilər?

İqtisadçı Elşən Əliyev "Bak-Xəbər"ə bildirdi ki, buradan iki nəticə çıxarmaq olar: "Ermənistan işğalçı siyasəti nəticəsində uzun illərdir iqtisadi blokadadan çıxa bilmir. Dəmir yolu strukturu da həmin aqibəti yaşayır. Onlar düşünürlər ki, Naxçıvanı blokadaya almaqla nəsə ediblər, ancaq real mənzərə göz qabağındadır. Düzdür, Ermənistan Mehridən olan dəmir yolunu bağlayıb və bunun da nəticəsində özünü də blokadaya salıb. Naxçıvanın artıq, demək olar ki, blokadan çıxmaq məsələsi həllini tapıb. Türkiyə və İranla quru yolun olması Naxçıvan üçün həyati əhəmiyyət kəsb edir. Bir çox hallarda Naxçıvanın ehtiyaclarını bu yollar vasitəsilə ödəyirlər. Ötən əsrin 90-cı illərindən etibarən vəziyyət belədir. Blokadaya görə dəmir yolu əlaqəsi kəsilib. Öncəki dövrdə isə Naxçıvana Mehri rayonundan keçən 27 kilometrlik dəmir yolu xətti var idi. Həmin ərazinin işğal altında olması səbəbindən dəmir yolu əlaqəsi də kəsildi. BTQ-yə qoşulan Naxçıvan Avropaya qədər uzanan yol-nəqliyyat imkanı əldə edib. Bu həm Naxçıvana yüklərin dəmir yolu vasitəsilə daşınmasına imkan yarada bilər, həm də bu yolun açılması Naxçıvanın Bakı-Tiflis-Qars xəttinə qoşularaq Avropaya qədər yüklərin, eləcə də sərnişinlərin daşınmasına şərait yaradır. Ermənistan isə bölgəni əhatə edən bütün layihələrdən kənarda qalıb".

Ekspertin sözlərinə görə, Rusiya ilə məhz bu istiqamətdə yaranan fikir ayrılığının kökündə başqa bir amil də durur: "Paşinyan hakimiyyəti bildirirdi ki, yeni hökumətin qısa fəaliyyəti nəticəsində Ermənistanda dərhal bir neçə korrupsiya sxeminin üstü açılıb. Məlum olub ki, korrupsiya həyatın bütün sahələrinə sirayət edib və ən yüksək səviyyədə kölgəli müqavilələr üzərində qurulub. Yeni hökumətin antikorrupsiya qərarlarının bir hissəsi Ermənistan iqtisadiyyatında Rusiyaya yönəlik oriyentasiyanın dəyişməsindən xəbər verir. Buna ən böyük misal erməni mənşəli rusiyalı biznesmen, "Forbes"in versiyasına görə, bu ölkənin "əmlak krallarından" sayılan Samvel Karapetyana məxsus "Taşir kapital"la bağlanmış müqavilədən imtina olub.

Son iki ildə Samvel Karapetyan Ermənistanın elektrik enerjisi bazarında mütləq inhisarçı idi. 2015-ci ildə o, "Ermənistan Elekrik Şəbəkəsi"ni satın almış, 2017-ci ildə isə "Ermənistan Yüksək Gərginlikli Elektrik Şəbəkəsi"ni idarə etmək üçün ona etibarnamə verilmişdi.

Ermənistanda hesab edirdilər ki, Moskva bütün Ermənistanı "öz milyarderinə" etibarnamə ilə idarə etməyə verib.

Ermənistanda baş verən "məxməri inqilab" əvvəlki müqavilələrin, o cümlədən də Ermənistanla Rusiya arasında bağlanan sazişlərin təftişi ilə nəticələndi. Böyük təftiş Rusiya kapitalı olan və Ermənistanın strateji obyektlərinə malik digər şirkətlərdən də yan keçmədi. Bildirildi ki, "Rusiya Dəmir Yolları"na məxsus "Cənubi Qafqaz dəmir yolu" dövlət şirkəti uzun illərdir Ermənistan dəmir yolundan pulsuz istifadə edir. Böyük ehtimalla, indi onları ödəniş etməyə məcbur etmək istəyiblər.

Rusiya kapitallı başqa bir şirkət "GeoProMayning" də Ermənistanda ciddi problemlərlə üzləşib.

"GeoProMayning" Sotdakı qızıl və Aqarakdakı mismolibden yataqlarının istismarı ilə məşğuldur. Bu günlərdə şirkət rəhbərliyi bəyan edib ki, Ermənistandakı Rusiya kapitalına "millətçi yanaşma" var. Məhz bu yanaşmaya görə Rusiya bütün sahələrdə Ermənistanı sıxmağa başlayıb. Yəni Ermənistanın iqtisadi şantajları öz başında çatlayıb. Rusiya bütün layihələrdə olduğu kimi, dəmir yolu sahəsində də Ermənistanı sıxır. Onsuz da rentabelli olmayan sahədən imtina etməklə Ermənistanı daha çıxılmaz vəziyyətə salmış olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Dollarla bağlı bəzi dünya prosesləri manata təzyiqi gücləndirir...

**Dünya maliyyə sektorunda bu gün xüsusi diqqətlə izlənilən əsas hadisələrdən biri də ABŞ dollarının digər valyutalara nisbətdə gələcək kursunun necə olacağıdır. Çünki hazırda dolların ucuzlaşması üçün Donald Tramp iqtidarının Federal Ehtiyatlar Sisteminə təzyiqi davam edir.**

Elə bununla bağlı olaraq Federal Ehtiyatlar Sisteminin son iclasında uçot dərəcəsi 1,75-2 faizə salınıb. Amma il ərzində uçot dərəcəsinin aşağı salınmasının davam etməsi gözlənir. Bu isə dolların digər valyutalar qarşısında tədricən dəyər itirməsini şərtləndirir.

Hesab edilir ki, belə vəziyyətdə Azərbaycan manatı üzərində də təzyiqlər artacaq. Manatın dollara nisbətdə möhkəmlənməsi baxımından milli valyutaya təzyiqlər getdikcə artır. Buna neft gəlirlərindən tutmuş ölkənin ixracının artması, turizm və digər sektorlar üzrə valyuta daxilolmalarının çoxalmasına kimi çoxsaylı amillər təsir edir. Eləcə də dünya maliyyə bazarlarında baş verənlər, xüsusən də dolların uçot dərəcəsinin azalması kimi faktorlar da bu prosesə ciddi təsir edir. Federal Ehtiyatlar Sisteminin bundan sonra da uçot dərəcəsini azaltması fonunda isə manata təzyiqlərin daha da artması qaçılmaz sayılır. Aydındır ki, ABŞ yenidən uçot dərəcələrini endirmək istiqamətində addımlar atsa, dollar dünya bazarında, eləcə də Azərbaycanda əhəmiyyətli dərəcədə ucuzlaşa bilər. Bunun qarşısı isə yenə Mərkəzi Bankın müdaxiləsi ilə alına bilər.

İndilikdə görünən budur ki, ölkənin baş bankı dollar-manat məzənnəsinin sabit qalması istiqamətində fəaliyyət göstərməli olacaq. Çünki 2020-ci il üçün dövlət büdcəsində manat- dolları məzənnəsinin 1.7 səviyyəsində olması nəzərdə tutulur. Maliyyə Nazirliyinin Azərbaycanın 2020-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərində məhz bu hədd nəzərə alınıb. Manatın məzənnəsi ilə bağlı Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Elşad Məmmədov bildirir ki, indilikdə də miilli valyutanın stabilliyinə heç bir ciddi təhlükə yoxdur: "Maliyyə Nazirliyi, Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası həyata keçirdiyi siyasətlə tam şəkildə manatın stabilliyini təmin etməlidir". O bildirib ki, xarici ticarət saldosu, tədiyyə balansı manatın məzənnəsinə əsas təsir göstərə biləcək fundamental məsələlərdir: "Xarici ticarətdə, tədiyyə balansında kifayət qədər müsbət göstəricilər var. Ölkəyə daxil olan valyutanın həcmi ölkədən çıxan valyutanın həcmini xeyli dərəcədə üstələyir. Daxil olan valyutanın xeyli dərəcədə xaric olan valyutadan çox olması onu deməyə əsas verir ki, manat üçün fundamental təhlükə yoxdur. Valyutanın məzənnəsi ilə bağlı qeyri-sabitlik, problem olarsa, bunlar fundamental iqtisadi amillərlə deyil, makroiqtisadi idarəetmədə boşluqların əmələ gəlməsi ilə bağlı ola bilər". O bildirib ki, neftin qiymətinin Azərbaycanda baş verən iqtisadi proseslərə, o cümlədən məzənnə siyasətinə ciddi təsiri var: "Amma unutmayaq ki, Azərbaycanın çox böyük həcmdə qızıl-valyuta ehtiyatları var. Eyni zamanda, Azərbaycanda mövcud olan pul bazası az qala 5 dəfə qızıl-valyuta ehtiyatlarımızdan azdır. Belə olan halda valyutanın sabitliyinə, dayanıqlılığına hansısa ciddi təhlükədən danışmaq gülüncdür. Bu təhlükə ancaq iqtisadi idarəetmə ilə bağlı problemlər, zəifliklər, boşluqlar olarsa yarana bilər. "Neft qiyməti uzun müddət kəskin şəkildə aşağı, yəni 40 dollardan aşağı olarsa, bu müəyyən müddətdən sonra hansısa problemlər yarada bilər. Amma ən azından, 2020-ci ildə bu qeyri-mümkündür". Deməli, gələn il ərzində manatın məzənnəsinin güclənməsi üçün təzyiqlər olacaq. Buna təsir edəcək əsas amillərdən biri isə elə neftin qiyməti ilə bağlıdır.




Xatırladaq ki, gələn il üçün büdcədə neft qiyməti 55 dollardan götürülüb. Amma baş verən bir çox hadisələr, xüsusən də OPEC+ ölkələrinin fəaliyyəti neftin qiymətinin ən azından indiyi hədd qalacağın göstərir. Deməli, Azərbaycanın neft gəlirləri yenə nəzərdə tutulduğundan yüksək olacaq və bu da manata əlavə təzyiq yaradan faktorlardan sayılır. Bu arada neftin qiymətini yüksək saxlayacaq əsas amillərdən biri isə Səudiyyə Ərəbistanının neft yataqlarına endrilmiş dron və raket zərbələrinin nəticələridir. Məlumata görə, dövlət neft şirkəti "Saudi Aramco" hücuma məruz qalmış neft qurğularını bərpa etmək üçün Qərb podratçıları ilə çarəsiz danışıqlar aparır. Bərpa işləri isə uzun aylar vaxt apara bilər.

"The Wall Street Journal" qəzetinin yazdığına görə, "Saudi Aramco" rəhbərliyi əvvəlcə bərpa işlərinə uzağı 10 həftə vaxt lazım olacağını bildirmişdi. Lakin vəziyyətin daha mürəkkəb olduğu üzə çıxıb və şirkətin menecerləri bərpa işlərinin gələn il boyu davam edə biləcəyini belə dilə gətirirlər. O da bildirilir ki, "Saudi Aramco" neft emalı zavodlarını bərpa etmək və avadanlıqlar üçün podratçılara yüksək qiymət vəd edir. Çünki hücumlara görə həm Səudiyyə iqtisadiyyatı, həm də "Saudi Aramco" şirkətinin özü təhlükəyə düçar ola bilər. Hücuma məruz qalan neft yataqları Səudiyyənin gündəlik neft hasilatının az qala 90 faizini təmin edirdi. Hücumlardan sonra hasilat yarıdan çox azalıb. Digər tərəfdən, belə hücumların davamlı ola biləcəyinə dair xəbərdarlıqlar da var. Məhz bu amil neft qiymətlərinin yüksək həddə qalmasını uzun müddət təmin edəcək. Ümumiyyətlə, İranla Səudiyyə Ərəbistanı arasında gərginliyin olması birbaşa neft bazarına hələ uzun müddət təsir edəcək. Eləcə də OPEC+ ölkələri də bazardakı payını saxlamaq üçün neftin qiymətinin ən azından 60 dollar ətrafında olmasını məqbul hesab edir və bu istiqamətdə fəaliyyət göstərir. Yeri gəlmişkən qeyd edək ki, hasilatın pay bölgüsünə uyğun olaraq Azərbaycanda da neft hasilatının artımı hələlik proqnozlaşdırılmır. Azərbaycan mövcud neft hasilatını qoruyub saxlamağa çalışan ölkələrdən biridir və bu istiqamətdə OPEC+ ölkələri ilə sıx əməkdaşlıq edir. Belə vəziyyət neftin qiymətini yüksək həddə saxlamağa bəs edir. Qeyd olunduğu kimi, yüksək qiymət Azərbaycana daxil olan valyutanın da həcminin əhəmiyyətli dərəcədə artımı deməkdir. Artan valyuta da, öz növbəsində, manat üzərində təzyiqin daha da artmasına rəvac verir.

***Tahir TAĞIYEV***

**Sosial şəbəkələrdə üzərində xüsusi fərqləndirmə ilə erməni dilində yazılar yazılan "Choco Pie" şirniyyatının Azərbaycanda satılması və onun ölkəmizdəki ticarət şəbəkəsinə necə yol tapması geniş müzakirə olunur. Ən maraqlısı isə budur ki, həmin adda məhsulun ancaq "Bazarstor" mağazalar şəbəkəsində satılanının üzərində erməni dilində yazı var.**

# Bakı marketlərində "Choco Pie" şokoladları, bəzilərinin hətta üstündə erməni yazıları...



Eyni adlı məhsulun başqa ticarət şəbəkələrində satıldığına da rast gəlinsə də, onların üzərində erməni dilində yazıya rast gəlinmir.

Mütəxəssislər bildirirlər ki, Azərbaycana bu məhsul Rusiyadan idxal olunur. Rusiya bazarında klassik "Choco Pie"nın satış markasının sahibi olan iki istehsalçı var və məhsullar fərqli fabriklərdə istehsal olunur. Onlardan biri "Choco Pie Orion" (orijinal), digəri isə "Choco Pie Lotte"dir. "Lotte" ölkəmizdə daha az tanınır. Qutunun üzərində fərqləndirmə yoxdur, ancaq şirniyyatın öz paketində (daxildə) erməni dilində yazı fərqləndirilib. "Bazarstor"da satılan bu "Choco Pie" 1983-cü ildən istehsal olunan "Lotte"dir. Bu şirkətin zavodu Rusiyanın Obninsk şəhərində yerləşir.

Bununla bağlı "Bazarstor" açıqlama yayıb ki, 3 gün müddətində bu məhsullar satışdan yığışdırılacaq, ancaq məhsulun satışının hələ də davam etdirildiyi bildirilir. Şirkətdən bildirilir ki, "Lotte" Rusiyada istehsal edilir və erməni məhsulu deyil.

Ancaq məhsulun üzərindəki təqdimatda erməni

## ***Eyyub Hüseynov:*** *"Təəssüf ki, Azərbaycana idxal olunan malların hamısında belə markalanma aparılmır və bu, yalnız 30 faizi əhatə edir"*

dilindəki yazıların fərqli şəkildə çox böyük hərflərlə verilməsindən bu nəticəyə gəlmək olar ki, şirniyyat Ermənistan bazarı üçün nəzərdə tutulub. Belə bir məhsul Azərbaycana necə yol tapıb və onun yalnız "Bazarstor"da satılmasının sirri nədədir?

Azad İstehlakçılar Birliyinin rəhbəri Eyyub Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu cür məsələlərlə bağlı ciddi mübarizə aparılmalıdır: "Yeyinti məhsulları haqqında" və "Dövlət dili haqqında" qanunlarda, Nazirlər Kabinetinin 94 saylı qərarında birmənalı şəkildə göstərilir ki, Azərbaycanın əmtəə bazarında bütün malların müşahidəedici sənədləri xarici dillə yanaşı, həm də Azərbaycan dilinədə olmalıdır. Bu, istehlakçıların beynəlxalq hüquqlarına aid olan məsələdir. Təəssüf ki, Azərbaycana idxal olunan malların hamısında belə markalanma aparılmır və

*"Ölkənin əmtəə bazarında kifayət qədər qaçaq və mənbəyi təhlükəli olan məhsul var"*

bu, yalnız 30 faizi əhatə edir. Bizdən çox zəif olan Gürcüstan, hətta Ermənistan bu məsələni birmənalı həll edib. Onların əmtəə bazarına öz dillərində markalanmayan məhsullar daxil olmur. Hesab edirəm ki, buna ən ciddi nəzarəti gömrük orqanları həyata keçirməlidirlər. Əgər adını şəkdiyiniz keksələrin üzərində Azərbaycan dilində məlumat yoxdursa, yuxarıda qeyd etdiyim qanunlara görə onun Azərbaycanda satışı qadağandır. Ola bilsin ki, həmin məlumat Azərbaycan, başqa dillər və erməni dilində də verilsin. Belə olduqda problem yoxdur. Bütün məlumatlar eyni şriftlə verilməlidir. Hansısa dili xüsusi fərqlənmə ilə verirlərsə, deməli, həmin məhsul xüsusi olaraq oranın bazarı üçün nəzərdə tutulur. Onda belə qənaət hasil ola bilər ki, həmin mallar Ermənistandan Gürcüstan vasitəsilə Azərbaycana keçirilir. Ən qorxulusu isə budur ki, həmin məhsulun mənbəyi də təhlükəli ola bilər. Bir daha vurğulayıram ki, buna ən ciddi nəzarəti etmək gömrük orqanlarının üzərinə düşür. 20 gün əvvəl mən başqa bir əmtəə ilə bağlı Gömrük Komitəsinə məlumat verdm. Söhbət yalnız gürcü dilində markalanan "Nataktari" limonadlarından gedir. Məndə olan məlumata görə, onların Azərbaycana keçirilməsinin arxasında Gürcüstanda yaşayan ermənilər durur. Bazarımızda 50 faizə qədər yer tutur. Təəssüflər olsun ki, bu barədə bir neçə dövlət qurumuna rəsmi məlumat versəm də, problem hələ də aradan qaldırılmayıb. Bu misalı ona görə çəkirəm ki, ölkənin əmtəə bazarında kifayət qədər qaçaq və mənbəyi təhlükəli olan məhsul var. Bunun istehlakçıların sağlamlığına və ölkəmizin maliyyə-pul siyasətinə mənfi təsiri var".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Mərkəzi Bank sentyabrın 13-də uçot dərəcəsini 25 baza punktu azaldaraq 8.25 faizdən 8 faizə endirilməsi haqda qərar qəbul edib. Faiz dəhlizinin yuxarı və aşağı hədləri uçot dərəcəsinə ±1.75%-lik diapazonda müəyyən edilib.**

# Kommersiya bankları Mərkəzi Bankın uçot-faiz əməliyyatlarını indiyə qədər saya salmayıblar, bundan sonra necə olacaq...




Mərkəzi Bankın məlumatına görə, faktiki inflyasiya hədəf diapozonunun ortasından aşağıda qalır, qısamüddətli inflyasiya gözləntilərinin dinamikasında əhəmiyyətli dəyişikliklər müşahidə olunmur. Yenilənmiş proqnozlara görə, 2019-cu ilin sonuna inflyasiya dəhlizin orta səviyyəsindən bir qədər yuxarı olmaqla hədəf diapazonu (4±2%) daxilində qalacaq.

Uçot dərəcəsinin aşağı salınması ilə bağlı MB-nin atdığı addımlara baxmayaraq, kommersiya banklarının kredit faizlərinin aşağı düşməsi ilə bağlı hər hansı bir yenilik yoxdur. Məsələ ondadır ki, 2019-cu ildə MB 5 dəfə uçot dərəcəsi ilə bağlı faizi endirsə də, bu yöndə heç bir irəliləyiş qeydə alınmayıb. Kommersiya bankları, faktiki olaraq, MB-nin bu yöndə atdığı addımları saya salmır. Hansı ki, 2019-cu ildə uçot dərəcəsi 9,75 faizdən 8 faizə endirilib. Ötən il də faizlər aşağı salınıb. Bu o deməkdir ki, MB nisbətən daha yumşaq pul siyasəti həyata keçirsə də, kommersiya bankları bütün bunları nəzərə almır. Heç cüzi də olsa bunun əlamətləri hiss olunmayıb.

## ***Ruslan Atakişiyev:*** *"Ümumilikdə, görünən odur ki, banklar kredit faizlərinin aşağı salınmasında maraqlı deyillər"*

Maraqlıdır, uçot dərəcəsi ilə bağlı faizlərin az-az aşağı salınması bankları qane etmir, yoxsa, ümumiyyətlə, kredit faizlərini aşağı salmaqda maraqlı olmadıqları üçün belə edirlər? Bütün hallarda, banklar niyə kredit faizlərini aşağı salmırlar?

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyevin sözlərinə görə, MB-nin apardığı siyasətin mahiyyəti ondan ibarətdir ki, kommersiya banklarında həm faiz dərəcələri aşağı düşsün, həm də banklar daha çox real

*"Hesab edirəm ki, maliyyə alətləri artsa, bu, kredit bazarında təklifin yüksəlməsinə səbəb olacaq"*

sektora vəsait yönəltsinlər: "Yeni banklar sənaye, kənd təsərrüfatı, bir sözlə, istehsal sektoru ilə daha yaxından əməkdaşlıq etsinlər. Ancaq biz bunu görmürük. Görürük ki, bütün bu atılan addımlara baxmayaraq, bankların kredit faizləri yuxarı həddə qalmaqdadır. Baxmayaraq ki, problemli kreditlər məsələsi yoluna qoyulub, bir sıra risqlər azalıb. Banklar isə faizlərin aşağı salınmamasını müəyyən xərclərlə əlaqələndirirlər. Bildirirlər ki, yeni filial və bankomatların açılması ilə bağlı xərclər artıb. Ümumilikdə, görünən odur ki, banklar kredit faizlərinin aşağı salınmasında maraqlı deyillər. Bütün bunlara baxmayaraq, uçot dərəcəsinin aşağı salınması ilə yanaşı, maliyyə alətlərinin sayının artırılmasına ehtiyac var. Maliyyə alətləri deyəndə təkcə kreditlərin verilməsindən söhbət getmir. Burada söhbət həm də səhmlərin alınmasından gedir.

Digər alternativ maliyyə alətləri işə salınmalıdır. Son dövrlər İqtisadiyyat Nazirliyi bu sahədə iş aparır. İslam bankçılığı ilə bağlı maliyyə alətlərini ölkəmizə gətirmək istəyirlər. Hesab edirəm ki, bu kimi maliyyə alətləri artsa, bu, kredit bazarında təklifin yüksəlməsinə səbəb olacaq. Bu zaman bank sektorunda olan yüksək faiz dərəcələrinin aşağı düşməsi üçün zəmin yaranacaq".

***Vidadi ORDAHALLI***

# Böyük Rusiya biznesi Ermənistanı tərk edir - Moskva İrəvana qarşı yeni cəza mexanizmlərini işə sala bilər...

**Moskva və İrəvan arasında gərginləşməkdə olan münasibətlərə daha bir maraqlı nüans əlavə olunmaqdadır. Söhbət yaranmış durumda Rusiya biznesinin Ermənistanı tərk etməyə hazırlaşmasından gedir. Bütün bunlara əsas səbəb isə Nikol Paşinyan iqtidarının Rusiya biznesini ölkədə sıxışdırmaqda davam etməsidir.**

Hadisələrin inkişaf axarından belə görünür ki, bu dəfə "Rusiya Dəmir Yolları"nın (RDY) törəmə şirkəti olan "Cənubi Qafqaz Dəmir Yolları" İrəvanda hakimiyyətin hədəfinə tuş gəlib.

Xatırladaq ki, Ermənistanda dəmir yollarının idarəçiliyi məhz "Cənubi Qafqaz Dəmir Yolları"nın (CQDY) tabeliyindədir. İndi isə Rusiyanın "Kommersant" qəzeti yazır ki, üzləşdiyi problemlər və təzyiqlər üzündən "Rusiya Dəmir Yolları" Ermənistanın dəmir yolu şəbəkəsinin idarə olunması ilə bağlı sazişi ləğv edə bilər. Məlumata görə, Rusiya tərəfi İrəvanın "Cənubi Qafqaz Dəmir Yolları"nın işinə mane olduğunu bəyan edib. Ermənistanda isə bu xüsusda Rusiya hökuməti ilə danışıqlar aparıldığını bildiriblər.

Xatırladaq ki, 2018-ci ilin avqustunda Ermənistan Dövlət Gəlirlər Komitəsi "Cənubi Qafqaz Dəmir Yolları"nda axtarışlar həyata keçirib və şirkəti vergi pozuntularında ittiham edib. Ermənistanın baş naziri Nikol Paşinyan "Kommersant"a müsahibəsində "Cənubi Qafqaz Dəmir Yolları"nın törəmə şirkətində 60 milyon dollar məbləğində sui-istifadə faktı aşkarlandığını və vergidən yayınma şübhəsi ilə cinayət işi başlandığını deyib. Rusiya tərəfi bütün ittihamları rədd edir. Rusiya Nəqliyyat nazirinin müavini Vladimir Tokarevin bildirdiyinə görə, Ermənistan "Cənubi Qafqaz Dəmir Yolları"nın normal işləyə bilməyəcəyi vəziyyət yaradıb. O həmçinin qeyd edib ki, "Cənubi Qafqaz Dəmir Yolları" Ermənistanla sazişin vaxtından əvvəl ləğvi ilə bağlı məsələnin ciddi şəkildə araşdırılmasına başlayıb. Hesab edilir ki, dəmir yolu ilə bağlı anlaşma pozulsa, bu hal iki ölkə arasında növbəti böyük qalmaqalın göstəricisi olacaq. Aydındır ki, Moskva bunları cavabsız buraxmayacaq.



Digər tərəfdən, belə vəziyyətdə Ermənistanın İrandan ölkəyə dəmir yolu çəkmək niyyətinin də tam iflasa uğrayacağı gözlənir. Xatırladaq ki, İrəvan hələ 2014-cü ilin avqustunda İrandan Ermənistana dəmir yolunun çəkilməsi haqqında dövlət proqramı hazırlayıb. Proqrama əsasən, 300 kilometrlik dəmir yolu 64 körpüdən, 60 tuneldən və 27 stansiyadan ibarət olmalı idi. Layihənin ümumi dəyəri isə 3,5 milyard dollar həcmində dəyərləndirilirdi. Lakin ötən müddətdə bu istiqamətdə heç bir addım atılmayıb ki, bunun da həm siyasi, həm də iqtisadi səbəbləri var.

Siyasi səbəb ondan ibarətdir ki, bu gün dünya ictimaiyyəti aydın şəkildə Ermənistanın müstəqil olmadığını anlayır. Mühüm siyasi qərarların İrəvanda deyil, başqa paytaxtlarda verildiyi hamıya gün kimi aydındır. Belə vəziyyətdə Rusiya Ermənistanın İranla dəmir yolu əlaqəsini inkişaf etdirməsinə birmənalı şəkildə imkan verməyəcək.

İqtisadi səbəblərə gəldikdə, qeyd etmək lazımdır ki, dəmir yolunun çəkilişi üçün Ermənistanın ümumi icmal büdcəsində belə 3,5 milyard dolların heç üçdə bir hissəsi yoxdur. Beynəlxalq investorlar isə Ermənistanın uydurma layihələrinə deyil, real gəlir gətirən layihələrə sərmayə yatırır. Eləcə də İran özü "Şimal-Cənub" layihəsinin reallaşması çərçivəsində artıq Ermənistanla dəmir yolu əlaqəsinin çəkilməsinə hansısa maraq göstərmir. Əvəzində, Ermənistanın ölkə daxilində Rusiya şirkətini sıxışdırması isə Moskvanın cavab tədbirləri nəticəsində İrəvanın dəmir yolları şəbəkəsinin tam iflasa uğraması ilə nəticələnəcək.

Xatırladaq ki, "Cənubi Qafqaz Dəmir Yolları" Ermənistanda təzyiqə məruz qalan ikinci ən böyük Rusiya şirkətidir. Bundan əvvəl isə Rusiyaya məxsus "Qazprom Armenia" hədəfə alınıb. Rusiyanın qaz nəhəngi sayılan "Qazprom"un törəməsi olan bu şirkət hələ də Ermənistanın Dövlət Gəlirləri Komitəsinin əli ilə sıxışdırılır. Qurum ötən ildən şirkətin böyük maliyyə vəsaitlərini vergidən yayındırdığını bildirir. Məlumata əsasən, 2016-cı və 2017-ci illərdə "Qazprom Armenia" şirkəti gəlir və əlavə dəyər vergiləri barədə saxta məlumatlar təqdim etməklə dövlətə vergi öhdəliklərindən milyonlarla dollar az vergi ödəyib. Aparılan yoxlamaların nəticələrinə əsasən, vergi, rüsum və başqa məcburi ödəmələrdə yayınmalarla bağlı cinayət işi başlanıb. "Qazprom Armenia" bu ittihamı gülünc adlandıraraq ünvanına söylənilənləri təkzib edib. Şirkət Ermənistanda ən böyük vergi ödəyiciləri olduqlarını xatırladıb: "Komitənin belə davranışı "Qazprom Armenia"nın nüfuzunu və normal fəaliyyətini təhdid edir". Hazırda "Qazprom Armenia" ətrafında araşdırmalar davam edir.

Qeyd edək ki, 1997-ci ildə təsis edilən "Qazprom Armenia" Qapalı Səhmdar Cəmiyyəti Rusiyanın "Qazprom" Qapalı Tipli Səhmdar Cəmiyyətinin törəmə müəssisəsidir. "Qazprom Armenia" Rusiyadan Ermənistanın daxili bazarına təbii qazı təkbaşına nəql edir. Bununla da onun ölkənin daxili bazarında inhisarçı olmaq hüququ tanınıb. Rusiya hazırda Ermənistana qazı 165 dollara satır. Bununla belə, Ermənistan Rusiyadan "mavi yanacağ"ın qiymətini ucuzlaşdırmasını istəyir.

Əks halda, İranı Moskvaya alternativ olaraq göstərir. Amma "Qazprom Armenia" nın baş direktoru Qrant Tadevosyan bunu sərfəli saymır: "İranın min kubmetr təbii qazının istiliyi 7900 kilokalori, Rusiyanınkı isə azı 8200 kilokaloridir. Bu isə Rusiyanın təbii qazının daha çox istilik verməsi deməkdir. Rusiya qazın min kubmetrini 150 dollara satırsa, keyfiyyət göstəricisi daha aşağı olan İranın "mavi yanacağ"ının 135 dollara idxal edilməsi sərfəli olar. Amma İran bu qiymətə qaz satmır və qazın İrandan Ermənistana gəlişi üçün infrastruktur da yoxdur".

**Belə vəziyyətdə Ermənistanın atdığı addımlara uyğun olaraq Rusiya qazı bu ölkəyə 200 dollara satmağa hazırlıq görür. Amma görünən həm də budur ki, İrəvanın təzyiq siyasəti davam etsə, böyük rus şirkətləri Ermənistanı tərk edəcək. Məhz bu durumda Ermənistan daha acınacaqlı bir vəziyyətə düşəcək. Həm də bundan sonra Kreml İrəvana qarşı daha sərt siyasətə üstünlük verməli olacaq.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ təcavüzkarlığı Ermənistan üçün daha böyük problemə çevrilir

**Ermənistan daxilində gərginləşən vəziyyət, hakimiyyətdə baş verən çatlar, fikir ayrılıqları və bu qəbildən olan digər halların Dağlıq Qarabağ münaqişəsinə də öz təsirini göstərəcəyi ekspertlər tərəfindən qaçılmaz hal sayılır. Məsələ burasındadır ki, mövcud erməni hakimiyyətinin Qarabağ məsələsində vahid mövqe sərgiləməsi artıq müşkülə çevrilib.**

Eyni zamanda görünən budur ki, hakimiyyətdə bir çoxları baş naziri Nikol Paşinyanın Qarabağla bağlı populist mövqeyi ilə də razılaşmır. Çünki Paşinyanın addımları məsələnin dinc müstəvidə həllini dalana dirəyir və belə vəziyyətdə Azərbaycanla savaşın başlanmasının Ermənistanın sonu ola biləcəyini dərk edənlərin sayı az deyil.

Digər tərəfdən bütün bunlar elə bir vaxtda baş verir ki, Ermənistan əsas xarici himayədarlarının, xüsusən də Rusiyanın dəstəyindən məhrum olub. Məhz bu durumda Paşinyanın vəziyyəti gərginləşdirən mövqe nümayiş etdirməsi Ermənistan üçün olduqca təhlükəli hal sayılır. Bununla yanaşı, görünən həm də odur ki, Paşinyan mövqeyi üzündən getdikcə təklənir və onun komandasının dağılma prosesi də getdikcə sürətlənəcək. Qeyd edilənlərlə bağlı Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Artur Vanetsyanın "Qraparak" qəzetinə müsahibəsində səsləndirdiyi fikirlər xüsusi diqqət cəlb edir: "Paşinyan mənim istefamdan sonra yanıma müxtəlif adamları göndərərək bir müddətlik susmağımı xahiş edib, amma görürəm ki, o, növbəti dəfə razılaşmaları pozub, populist bəyanatlar verir. Aydındır ki, Paşinyan öz sözlərinin nəticələri haqqında düşünmür, yalnız insanlara anlıq təsiri fikirləşir. Təsəvvür edin ki, mən nəticələrini düşünmədən danışmağa başlayıram. Cəmiyyəti "kim bizlə deyilsə, o satqındır" fikrini irəli sürərək, nə vaxta qədər fikir ayrılığına salmaq olar? Kimsə Paşinyanla razı deyilsə, o, keçmişdəkilərin sifarişi ilə hərəkət edir. Demişəm və təkrar edirəm ki, məni keçmişdəkilərlə əlaqələndirməyə cəhd etməyin. Xatırladıram ki, sülh dönəmində Ermənistan baş naziri Ali Baş Komandan deyil. Mənim bəyanatımı oxuyanlar nə dediyimi anlayıblar. Mən əminliklə deyirəm ki, zaman kimin və nəyin zibillikdə olacağını göstərəcək. İnanıram ki, xalq manipulyasiyaya getməyəcək". .

Qeyd edək ki, Paşinyan Los-Ancelesdə jurnalistlərə açıqlamasında Vanetsyanın bəyanatını Ali Baş Komandana, yəni özünə hörmətsizlik kimi dəyərləndirib: "Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəhbəri olmuş Artur Vanetsyanın istefadan sonra yaydığı bəyanat Ermənistan Silahlı Qüvvələrinə hörmətsizlikdir. Vanetsyan bəyanatında zabit şərəfindən bəhs etdi. O, Milli Təhlükəsizlik Xidmətinin de-yure direktoru olaraq özünün Ali Baş Komandanına qarşı bəyanat verir. Zabit şərəfinə bundan hörmətsiz münasibət ola bilməz. Vanetsyan bu bəyanatı istefa sərəncamından dərhal sonra yaydı. Siz bilirsiniz bu nə deməkdir? Bu, rütbələrini zibilliyə atmaq deməkdir". Paşinyan deyib ki, bəyanatın Ermənistan Milli Təhlükəsizlik Xidmətinin saytında yerləşdirildiyini sonradan bilib: "Mən biləndən sonra çıxardılar, nə etməli idilər? Nə qalmalı idi? Zabitin belə bir şey etməsi rütbəsini zibil qutusuna atması deməkdir. Sonuncu dəfə belə bir şeyi 1991-ci ilin "putçistləri" edib". Qeyd edək ki, Vanetsyan istefasından dərhal sonra Paşinyan hökumətini tənqid edərək, onu kortəbii qərarlar qəbul etməkdə ittiham edib.

Bütün bu qeyd edilənlər Paşinyan komandası daxilində ciddi ziddiyyətlərin olduğunu aydın nümayiş etdirir və Artur Vanetsyanın açıqlamaları bunun real təsdiqi sayılır. Erməni siyasi şərhçi Naira Ayrumyan isə qeyd edir ki, hakimiyyət daxilində yaşananlar böyük təhlükələrin göstəricisidir və bu ziddiyyətlərin təsir göstərəcəyi məqamlardan biri məhz Qarabağ münaqişəsi olacaq: "Çünki Paşinyanla generallar arasında da ziddiyyət var. Belə vəziyyətdə cəbhədə hər hansı hərbi əməliyyat ordumuz üçün ciddi iflasla nəticələnə bilər. Çünki generallarla Paşinyan arasında ziddiyyət hərbi əməliyyatların gedişində hansı addımlar atılmasını lazımi qaydada koordinasiya etməyə imkan verməyəcək. Ümumiyyətlə, hakimiyyət daxilində böyük gərginlik müşahidə olunur.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyan və polis rəisi Valeri Osipyanın istefaları həm də yeni hökumətin gündəliyinin formalaşmasında katalizator rolunu oynaya bilər". Onun sözlərinə görə, radikal demokratik baxışları olan gənc fəallarын daxil olduğu "Mənim addımım" fraksiyasının hakimiyyətə gələn "gənc" nəslini cilovlamaq üçün əyləc lazımdır.

O qeyd edib ki, Ermənistandakı nihilizm mütləq "antikorrupsiya mübarizəsi" və "günahkar" olanların hamısının qisasını almaq üçün köhnə sistemi tamamilə silmək istəyini gizlətməyən yeni hökumətin siyasəti ilə şərtlənir: "Hakimiyyətdəki bir çoxunun nihilizmi fərqli səbəblərdən qaynaqlanır. Bu qüvvələr yalnız nihilizm tərəfindən qurulsaydı, ölkədə geridönməz sarsıntılar ola bilərdi, bütün bunların məsuliyyəti isə Paşinyanın üzərinə düşə bilərdi. Buna görə hər kəsi və hər şeyi silə bilən kanalın qarşısını almaq lazım idi və "ağlabatan qüvvələrin" mövcudluğu tarazlığı qorumağa imkan verirdi. Artur Vanetsyanın istefası nihilizm dalğasının yenidən yüksəldiyini və indi Paşinyanı təhdid etdiyini sübut edə bilər. Bax, bu durumda Ermənistan üçün böyük təhlükə formalaşır. Prosesləri diqqətlə izləyən Azərbaycan, yəqin ki, bundan maraqlı istiqamətində addım atacaq. Çünki Ermənistanda vəziyyətin qarışması Azərbaycan üçün sərfəlidir və Naxçıvanda onların mövqelərini irəli çəkməsi elə ötən il Ermənistanda qarışıqlıq olan zaman baş verdi. Paşinyan hakimiyyəti daxilində baş verənlər isə gərginlik və ziddiyyətin hələ uzun müddət davam edəcəyini göstərir". Analitik hesab edir ki, dövləti qorumağa çalışan hüquq-mühafizə orqanları Paşinyan və partiyasını bu gərginlikdən qorumayacaq.

Ayrumyanın sözlərini görə, "Nihilizm partiyası"nın bir sıra məsələlərdə Paşinyan və hüquq-mühafizə orqanları ilə Amulsar, Köçəryanın həbsi, hakimlərin hökmləri, Konstitusiya Məhkəməsi məsələlərində fikir ayrılıqları var:

"İqtidar partiyası və parlament xaricindəki liberal dəstək düşərgəsi mədənçilikdən tam imtina edilməsi və ekoloqlara qarşı güc tətbiq edilməməsi, Robert Köçəryanın həbsi və bütün "keçmiş"lərin cəzalandırılması, məhkəmə sisteminin tamamilə islah edilməsi və əmlakın müsadirə edilməsi üzrə mütləq hədləri təyin edib. Hətta 70% dəstəyi olan bir partiya belə bu həddə çatmağa qadir deyil. Hüquq-mühafizə orqanları cari, davam edən proseslərin təmin olunması ilə daha çox məşğuldurlar. Həyat keçir və kimin günahlandırılmasından asılı olmayaraq, hər bir çağırışa cavab vermək lazımdır. Amma Paşinyan indiki halda bunu etməyə qadir deyil. Elə bu səbəbdən Qarabağ savaşı yenilənsə, Ermənistanı daha böyük çətinliklərin gözlədiyini demək olar".

Erməni hərbi ekspert Karen Vrtanesyan da məsələyə eyni prizmadan yanaşır.

Vrtanesyan vurğulayır ki, Serj Sarksiyan və Nikolun hakimiyyət idarəçiliyini müqayisə edərkən sonuncunun daha qəddar və yarıtmaz olması dərhal nəzərə çarpır: "Serj bir ekstremist idi: heç kimi sona qədər məhv etmirdi. Qəzəbə tuş gələnlər oyundan çıxırdı, cəzalanırdı, lakin hətta ona kələk gələnlər belə amansızcasına cəzalandırılmırdı və ölmürdü. Nikol isə əks-ekstremistdir: kiminlə bir gün yüngül bir fikir ayrılığı olursa, bu onun sonu olur: dərhal həmin adamı "millətin düşməni" elan edirlər, heyvan sürüsü də dərhal hücuma keçir. Bu vəziyyətdə Ermənistan ciddi təhdidlərlə üz-üzə qalıb. Mən burada xüsusilə Qarabağ məsələsini nəzərdə tuturam. Gəlin görək, yaranmış vəziyyətdə bizim Qarabağ məsələsində Azərbaycana müqavimət gücümüz ötən dövrdə azalıb, yoxsa artıb? Təəssüf ki, cavab mənfidir və bütün bunlara görə məsuliyyət baş nazirin üzərindədir. Onun hakimiyyətə gəlişindən sonra Azərbaycan hərbi, diplomatik müstəvidə daha irəliyə gedə bilib".

Beləliklə, qeyd edilənlərdən bəlli olur ki, Ermənistan daxilində baş verənlərin əhəmiyyətli dərəcədə təsir göstərdiyi məqamlardan biri də Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Qarşıdakı dövr ərzində Ermənistan daxilində ziddiyyətlərin artması fonunda bu ölkənin Qarabağ məsələsində hansı siyasət yürüdəcəyinə gəlincə, ekspertlər burada bir neçə məqama toxunur. Əvvəla, yaranmış durumda Ermənistanda hakimiyyətdaxili çəkişmələr Qarabağ məsələsini arxa plana ata bilər. Bu durumda məsələnin dondurulmasına razı olmayan Azərbaycan hərbi əməliyyatlar yolu ilə ərazi bütövlüyünü bərpa etmək məcburiyyətində qalacaq. İkinci halda isə Azərbaycanın savaşa başlamasından ehtiyat edən Ermənistan hakimiyyəti, nəhayət, danışıqlarda konstruktiv mövqe sərgiləyə bilər. Bununla həm savaşın qarşısı alınar, həm də Ermənistan bir dövlət olaraq məhv olmaqdan xilas olar. Özü də burada İrəvan Rusiyanın dəstəyindən məhrum olduğunu, bunun Ermənistan üçün nə demək olduğunu mütləq mənada nəzərə almalıdır.

Rusiyalı ekspert Yevgeni Mixaylov isə məsələ ilə bağlı bildirir ki, Ermənistanın cana doymuş xalqı artıq həm sosial-iqtisadi, həm siyasi, həm də ən əsası, Qarabağ münaqişəsinin həlli istiqamətində hakimiyyətdən tələblər edir. O, xalqın iqtidar üzərində bu məsələlərlə bağlı təzyiqinin artdığını da xüsusi olaraq vurğulayır: "İşğal faktı Ermənistana baha başa gəlir və bütün böhranların əsas səbəbidir. Xalq da bunu yaxşı görür. Qonşulara qarşı düşmənçiliyin sonu yoxdur. Sadə ermənilər artıq hər şeyi dərk edir, rəsmi mövqe ilə üst-üstə düşməyən nəticələr çıxarırlar. Dağlıq Qarabağ münaqişəsinin başlamasından sonra artıq bütöv bir nəsil dəyişib. Bugünkü nəslin əvvəlkilər qədər sağlam olmaması üzündən bir sıra döyüş tapşırıqlarının yerinə yetirmək iqtidarında olmamasına görə erməni əsgərlərinin döyüş hazırlığında kəskin geriləmə göz qabağındadır. Bunun səbəbi də iqtisadiyyatın acınacaqlı vəziyyəti və belə vəziyyətin Qarabağ münaqişəsi üzündən yaranmasıdır. Belə vəziyyətdə xalq artıq münaqişənin həllini tezləşdirməyi tələb edir".

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Bakıda Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil edilən Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransı (IAEA 2019) keçirilir. IAEA 2019-da Azərbaycanla birgə 55 ölkədən 300-dən artıq nümayəndə iştirak edir. Builki konfrans "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusuna həsr olunub.**

# Təhsilin keyfiyyət qiymətləndirilməsi üzrə beynəlxalq konfransın Bakıda keçirilməsinin səbəbi...

## *Məlahət Mürşüdlü: "Belə bir tədbirin Bakıda keçirilməsinin mühüm əhəmiyyəti var"*




Məşğələlər "XXI əsrin funksional savadlılığına uyğun olaraq təhsildə və qiymətləndirmədə dayanıqlı keçidə nail olmaq üçün təlimlərin təşkili", "Qiymətləndirmə ədalətlidirmi?", "İmtahan keyfiyyətinin təmin olunmasına dair RCEC təşkilatının dəyərləndirmə sistemi" mövzularına həsr olunacaq. Konfrans sentyabrın 27-dək keçiriləcək.

Onu da qeyd edək ki, IAEA ümumi və ali təhsil müəssisələrində və iş yerlərində qiymətləndirməni həyata keçirən qurumlar üçün yaradılmış qlobal forumdur. Assosiasiyanın üzvləri dünya üzrə 50-dən çox ölkəni təmsil edən təhsil müəssisələri, tədqiqat mərkəzləri və müvafiq dövlət qurumlarından ibarətdir. IAEA təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılması və bu sahədə beynəlxalq əməkdaşlığın inkişafı məqsədilə hər il üzv ölkələrin birində beynəlxalq konfrans təşkil edir.

Bütün bunlarla yanaşı, təhsilin keyfiyyətinin qiymətləndirilməsi ilə bağlı sözügedən beynəlxalq konfransın Bakıda keçirilməsi nə deməkdir? Ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən təhsil sahəsi üzrə ekspert Məlahət Mürşüdlünün sözlərinə görə, belə bir tədbirin Bakıda keçirilməsinin mühüm əhəmiyyəti var:

*"Fikrimcə, bu tədbir təhsilin keyfiyyət qiymətləndirilməsində mövcud olan problemlərin aradan qaldırılmasına böyük bir dəstək olacaq"*

"Məsələ ondadır ki, son dövrlərdə islahatlar çərçivəsində Azərbaycanda yeni qiymətləndirmə formaları tətbiq edilir. Bu baxımdan, beynəlxalq təcrübənin öyrənilməsi çox vacibdir. Hesab edirəm ki, Bakıda keçirilən bu konfrans bizim təhsil sistemində qiymətləndirmə işinin daha sürətli və keyfiyyətli aparılmasına ciddi təkan verəcək. Tədbirin Bakıda keçirilməsi vacib hadisədir. Məsələyə kompleks şəkildə yanaşmaq lazımdır. Burada söhbət təhsilin keyfiyyətindən gedir. Nəzərə almaq lazımdır ki, qiymətləndirmə və keyfiyyət bir-birilə zəncirvari olaraq bağlı olan proseslərdir. Sözügedən tədbir də ancaq qiymətləndirməyə həsr edilib. Düşünürəm ki, keyfiyyətin qiymətləndirilməsi baxımından bu konfrans stimullaşdırıcı bir tədbirdir. Azərbaycanın təcrübə öyrənmək baxımından belə bir tədbirin Bakıda keçirilməsi müsbət əhəmiyyət kəsb edir.

Fikrimcə, bu tədbir təhsilin keyfiyyət qiymətləndirilməsində mövcud olan problemlərin aradan qaldırılmasına böyük bir dəstək olacaq. Ona görə də belə bir tədbirin Bakıda keçirilməsini müsbət dəyərləndirirəm".

***Vidadi ORDAHALLI***

**Yeni tədris ilinin ikinci həftəsindəyik. Dərslər başlayar-başlamaz, bəzi müəllimlərin bir-bir yeni tələbləri meydana çıxmağa başlayıb. Bunlardan biri də valideynlərə əlavə dərs vəsaitləri aldırılması ilə əlaqədardır. Halbuki, dəfələrlə Təhsil Nazirliyi rəsmiləri bəyan ediblər ki, məktəblilərin istifadəsinə verilən dərsliklər tam olaraq dərs proqramını əhatə edir və əlavə vəsaitlərə ehtiyac yoxdur.**

# Məktəblərdə müəllimlərin şagirdlərə əlavə tapşırıqları - Dərsliklər proqramı tam əhatə edirmi...



Lakin orta məktəb müəllimləri valideynlərə bildirirlər ki, tədris üçün istifadə edilən dərsliklər orta məktəb proqramını tam əhatə etmir və bu səbəbdən də əlavə vəsaitlərə ehtiyac var. Artıq bir neçə fənn üzrə iş dəftərləri, müxtəlif testlərin alınması tələb olunur. Müəllimlər qeyd edirlər ki, yalnız mövcud dərsliklərdən istifadə etməklə fənləri şagirdlərə mənimsətmək olmaz. Hətta onlar qeyd edirlər ki, müxtəlif mərkəzlərin keçirdikləri sınaq imtahanlarında test suallarına dərsliklərdə olmayan mövzular daxil salınır, şagir alternativ vəsaitlərdən istifadə etmədikdə bu suallar qarşısında aciz qalır. Bəzi müəllimlərin iddiasına görə isə, ümumiyyətlə, Dövlət İmtahan Mərkəzi tərəfindən hazırlanan açıq və qapalı tipli test suallarına da dərsliklərdə olmayan mövzular daxil edilir.

Doğurudanmı mövcud dərsliklər dərs proqramını tam olaraq əhatə etmir?

Mövzu ilə əlaqədar dərslik müəllifləri ilə əlaqə saxladıq. Dərslikləri onlar yazdıqları üçün bu suala da onların cavab verməsi daha uyğun sayılır.

Tanınmış dərslik müəllifi Rafiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, yazılan dərsliklərin proqramı əhatə etməməsi ilə bağlı səsləndirilən iddialar əsassızdır. "Bütövlükdə, dərsliklərin dərs proqramını əhatə etməməsi ilə bağlı fikirlər həqiqəti əks etdirmir. Dərsliklər dərs proqramını əhatə edir. Burada bir məsələ də var ki, təqdim edilən dərslik bir minumum olaraq dövlət tərəfindən məktəblərə pulsuz olaraq verilir. Ancaq daha effektivliyə nail olmaz üçün, istər-istəməz, əlavə vəsaitlərə ehtiyac yaranır. Siz baxsanız, müəllimlər uzaqbaşı 2-3 vəsait tələb edə bilər. İngilis dilinin öyrədilməsi üçün isə onlarla vəsaitə ehtiyac var. Valideyn müəllimin tələb etdiyi əlavə vəsaiti ala da bilər, almaya da. Bəzən alınan vəsaiti sinifdə saxlayırlar. Ancaq Azərbaycan spesifikası belədir ki, dərslik belə qurulub - minimum. Bu səbəbdən də əlavə vəsaitlərə həmişə ehtiyac olur. Bir məsələ də var, o vəsaitlərin nə dərəcədə düzgün seçilməsi ilə bağlıdır. Bu gün müxtəlif vəsaitlər kitab mağazalarını başına götürüb. Hər nəşriyyat bir müəllim tapıb ki, müəllim onun buraxdığı vəsaitləri şagirdlərə tövsiyə etsin. Bu başqa məsələdir. Vəsaitlərin seçimi hədsiz dərəcədə çətindir. Dərslik hər şeyi əhatə edə bilməz. Biz indi birinci siniflər üçün ehtiyat dərsliyin üzərində işləyirik. Hər kəs deyir ki, həmin dərslikdə şagirdi oxutmaq üçün vəsait azdır. Gərək biz onun yanında "hecadan oxu", "sinifdən xaric oxu" vəsaitlər də buraxaq. Çünki dərsliyi bu cür mətnlərlə doldursaq, onda o tapşırıqları, mövzuları qurmağa yerimiz qalmır. Təhsil Nazirliyi deyir ki, 160 səhifədən ibarət, filan formatda dərslik hazırlayın. 340 saatı 160 səhifəyə yerləşdirmək olmur" - deyə R.İsmayılov bildirdi.

## *Rafiq İsmayılov: "Dərsliklərin dərs proqramını əhatə etməməsi ilə bağlı fikirlər həqiqəti əks etdirmir"*

## *Xanım Qasımova: "Məktəblərdə tədris edilən dərsliklər proqramı əhatə edir"*

Digər tanınmış dərslik müəllifi Xanım Qasımova da hesab edir ki, yazılan dərsliklər proqramı əhatə edir. "Məktəblərdə tədris edilən dərslikər proqramı əhatə edir. Dərsliklərdə mətnlər də, tapşırıqlar da verilib. Əgər müəllim dərs zamanı Dövlət İmtahan Mərkəzinin müvafiq vəsaitindən istifadə edirsə, bu da könüllü olmalıdır. Yəni şagirdin biliyini həmin vəsaitlərlə yoxlamaq olar. Ancaq bu, könüllü şəkildə olmalıdır. Müəllim şagirddən əlavə dərs vəsaitindən istifadə etməyi tələb edirsə, müəllimin özünə də ikiqat ağır yük olur. Onu yoxlamaq, qiymətləndirmək və s. var. Əgər şagird yaxşı mənimsəyirsə, dərslik proqramı əhatə edir, amma əlavə vəsaitin də zərəri yoxdur. Elə şagird var ki, onu əlavə vəsaitlər, nümunələr üzərində bir qədər çox işlətmək lazımdır. Bu onun biliyini bir az da möhkəmlədər. Bunun ziyanı olmaz. Amma əlavə vəsaitlər könüllülük prinsipi ilə olmalıdır" - deyə X.Qasımova bildirdi.

***İradə SARIYEVA***

# Yumurta mafiyası yenidən baş qaldırır?...

**Son günlər yumurtanın satış qiymətində artım müşahidə olunur. Marketlərdə əvvəl 9-10 qəpiyə satılan yumurta hazırda 14-15 qəpiyə alıcıya təqdim olunur. Satıcıların bir qismi yumurtanın satış qiymətinin qalxmasının mövsüm dəyişikliyi, bəziləri isə yemin bahalaşması ilə bağlı olduğunu bildirir.**



Yumurtanın satış qiymətinin nə səbəbdən qalxdığını öyrənmək məqsədilə Azərbaycan Quşçular Cəmiyyətinin sədri Aydın Vəliyevlə əlaqə saxladıq.

A.Vəliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, yumurtanın satış qiyməti 10 günə yaxındır bahalaşıb: "Artıq 15 günə yaxındır yumurta 9-10 qəpiyə deyil, 14-15 qəpiyə satılır. Nəzərə almaq lazımdır ki, tələbatı ödəyən yem və digər lazım olan məhsullar xaricdən idxal olunur. Onların da qiymətləri bahalaşıb. Onu da bildirim ki, ölkədə olan yem xaricdəkindən də bahadır. Yumurtanı necə ucuz satsınlar ki? Bu mümkün deyil. Yumurtanın da 4-5 növü var. 8, 9, 10, 11 qəpiyə satırlar. Bu da marketlərin öz qiymətləridir. Bahalaşma mövsümi xarakter daşımır. Yem tələbatı 65-70% idxaldan asılıdır. Xaricdən gələn yem və yem əlavələri bahalaşdıqca, yumurtanın da qiyməti məcburi bahalaşır".

Aqrar sahə üzrə ekspert Nicat Nəsirli bizimlə söhbətində vurğuladı ki, yumurtanın satış qiymətinin yüksəlməsi quşçuluqda yaranan fasilə ilə əlaqədardır: "Məlumdur ki, quşçuluq da heyvandarlığın bir sahəsidir. Heyvandarlıqda xərclərin 70 faizi yemə sərf olunur. Yem ucuz başa gəlirsə, ya da sənin yem xammal mənbəyin varsa, təbii, bu qiyməti ucuzlaşdırmaq olar. Söhbət təbii ki, burada sənaye üsulu ilə yetişdirməkdən gedir. Qapalı müəssisələr, quşçuluq fabrikləri var. Bu fabriklərin böyük fermaları var, hər firmada təxminən 200 min baş quş var. Əhalinin də əsas ağ ət tələbatının əsasını quş əti təşkil edir. Bu broyler sənayesində təsadüfi yemlərə imkan verilmir. Bu yemlər hamısı sertifikatlaşdırılmış, laboratoriyada yoxlanmış, vitamin dəyəri balanslaşdırılmış yemlərdir. Bizdə bununla bağlı kifayət qədər yem ekilmədiyinə görə, hamısı deməzdim, bir çoxu xaricdən alınır. Arpa, buğda bizim torpağımızdan alınır, amma bizdə soya əkini geniş vüsət almayıb, soya şurotu, günəbaxan sortu, bəzi vitamin və minerallar var ki, onlar xaricdən idxal edilir. Bu saydıqlarımızın bəziləri hətta Cənubi Amerikadan gətirilir.

***Azərbaycan Quşçular Cəmiyyəti - Aydın Vəliyev:** "Xaricdən gələn yem və yem əlavələri bahalaşdıqca, yumurtanın da qiyməti məcburi bahalaşır"*

***Nicat Nəsirli:** "Yumurtanın satış qiymətinin yüksəlməsi quşçuluqda yaranan fasilə ilə əlaqədardır"*

Quşçuluqda qiymətdən danışırıqsa, burada yem məsələsi var. Xaricdən alınan yemdə qiymət artımı varsa, təbii ki, bu, maya dəyərinə təsir etməlidir. Sənaye üsulu ilə istehsal istixana kimi bir şeydir. Təxminən iyun ayına kimi davam edir, iyun ayından sentyabra kimi fermalarda fasilə olur. Bunun da səbəbi zoobaytar tədbirlərin keçirilməsidir, quşlar kəsilir, bazarlara göndərilir, fermalar dezinfeksiya edilir. Nəticədə quş əti təminatında və yumurta təminatında fasilə yaranır. Bazarda bu biznesə nəzarət edənlər bu həssaslığı bilirlər.

Onlar da dərhal bundan istifadə edib, məhsulun maya dəyərinə bunu əlavə edirlər. Oktyabr ayını 2-ci 10 günlüyündə görəcəksiniz ki, qiymətlər sabitləşir.

**Məlumat üçün deyim ki, dünyada quşçuluq təsərrüfatında fasilə yoxdur. Bunun iki səbəbi var. Birincisi, üzərində damazlıq var, bizdə damazlıq yoxdur, damazlıq qurulmayıb hələ. İkincisi isə özlərinin yemi var. Biz bu məsələnin ikisində də xaricdən asılıyıq. Artım daha çox sentyabr və mart aylarını öncəsi baş verir. Bunun da səbəbi bu iki faktordur".**

*Günel CƏLİLOVA*

# Azərbaycanın region sahibkarlığında yeni təmayül - qadınların sayı əhəmiyyətli dərəcədə artıb

**Müasir iqtisadiyyatımızı qadınlarsız təsəvvür etmək mümkün deyil. Ona görə də dövlət başçısının iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri də qadınların sosial-iqtisadi həyatda rolunun, iqtisadi fəallığının artırılmasıdır.**



***Fatimə Hacıbəyli:** "Azərbaycanda fəaliyyət göstərən qadın sahibkarlar, əslində, xırda və orta sahibkarlardır"*

Bu baxımdan ölkə iqtisadiyyatında qadın sahibkarlığı kiçik və orta sahibkarlığın daha dinamik hissəsini təşkil edir. Statistik məlumatlara görə, dünyada yeni biznes strukturların 25 faizdən çoxunu qadınlar yaradıb və bu onu göstərir ki, qadınların iqtisadi təşəbbüskarlığı ilbəil artmaqdadır.

Azərbaycanda da qadınlar ildən-ilə kiçik və orta sahibkarlıqda geniş təmsil olunmağa başlayıblar. Bu isə sosial-iqtisadi inkişafın, o cümlədən, məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Açıqlanan statistik məlumatlara görə, paytaxt Bakı ilə yanaşı, regionlarda da qadınların sahibkarlığa marağı artıb. Bölgələrdə sahibkarlığın inkişafı istiqamətində keçirilən təlimlərdə kişilərlə müqayisədə qadınlar daha çox maraq göstərirlər. Araşdırmalara görə, əsasən Sumqayıt, Gəncə, Mingəçevir, Qəbələ, Quba rayonlarında sahibkarlıqla məşğul olan qadınların sayı üstünlük təşkil edir.

Məlumat üçün bildirək ki, hazırda ölkədə 150 mindən çox sahibkar qadın var. İqtisadiyyatın inkişafında kişilərlə yanaşı, zərif cinsin nümayəndələrinin də rolunun olması təqdirəlayiqdir.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qadınların iqtisadi cəhətdən güclənməsi onların zorakılığa müqavimətini artıracaq. Bu sahədə potensialı olan qadınları irəli çəkmək, onlara dəstək vermək çox yaxşı olar: "Bizim biznes lediləirimiz var. O ledilər sahibkarlıq sahəsində müəyyən işlər görürlər. Ancaq dünya üzrə sahibkar lediləirimiz barmaqla sayılası səviyyədədir".

*"Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən qadınlara bəzən maneçilik törədilir"*

Həmsöhbətimizin sözlərinə görə, Azərbaycanda fəaliyyət göstərən qadın sahibkarlar, əslində, xırda və orta sahibkarlardır: "Danılmaz faktdır ki, hər zaman pul kişilərin əlində olub. Son 20 il ərzində isə qadınlar artıq pula sahib olurlar və sahibkarlıqla məşğul olmağa başlayırlar. Arzu edirəm ki, qadınlarımız kiçik və orta sahibkarlıqdan böyük biznesə doğru inkişaf etsinlər. Kiçik sahibkarlıqdan böyüyə yüksəlsinlər. Onu da deyim ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə bəzən maneçilik törədilir. Sahibkarlıq bacarığı olan qadınlara əsasən xanımın maddi gəlirinin artacağından qorxan kişilər mane olurlar. Digər səbəb isə sahibkar bacarığı olan, lakin kapitalı olmayan qadınlardır. Həmçinin, bəzi qadınlar sahibkarlıq fəaliyyətinin elmi əsasları və onun nəzəri biliklərini bilmirlər. Sadəcə, bu sahədə məşğul olmaq istəyirlər".

*Günel CƏLİLOVA*

# Hər kəsin yaşamadığı ömür - polis ömrü...

**Bilirəm ki, sevinəcək: düz beş il bundan öncə olduğu kimi. Doğum günü ərəfəsində görüşmüşdük və yazı üçün qeydlər aparacağımdan duyuq düşməsin deyə, üstümdə heç nə götürməmişdim. Yaddaşıma güvənib onunla həmsöhbət olmuşdum. 75 illik ömür səhifəsindən yadında qalanları, yaşadıqlarını birər-birər anlatmışdı. Kövrəlmişdi, duyğulanmışdı.**









Keçmişə boylanmağın necə çətin olduğunu, insana hansı hissləri yaşadacağını bəlli bir yaşı haqlayanlar daha yaxşı bilir. Bəs, görəsən şair niyə "Yetmişində batma yasa" demişdi? 80-ni, 90-nı deməmişdi. Və sonra "Kim ki, yüz il yaşamasa" deməklə özünə haqq qazandırmışdı...

O, köhnə kişilərdəndir və yaddaşına, yaşadıqlarına heç zaman xəyanət etməyib. Yaşadığı evin qapısına yazılmış "Məhərrəmov.M" o demək idi ki, illər öncə bu qapını, bu ocağı bu soyada və ada görə tanıyanlar, bura gələnlər gündən-günə dəyişən və gözəlləşən Bakımızda karıxıb qalmasınlar. Bu gün qapı üstünə ad, soyad yazmaq dəbdən düşüb. "Köhnəlikdir" deyib bəzilərimiz keçmişdən qalanlardan üz çeviririk. Beləcə, bir ünvan, bir ad və soyad unudulur. Həm də unuduruq bir-birimizi. Biz sözlə, şəhər belədir: doğmaları da ögeyləşdirir. Zaman şəhərdə daha tez keçir, kənddə isə sanki sirli bir qüvvə onun "əylədcini" dartıb-saxlayır...

İsti ocaq, doğma nəfəs insanı həmişə özünə çəkir və mən də düz beş il bundan öncə ondan gördüyüm baba nəvazişinin, səmimiyyətinin, ağsaqqal sözünün işığına üz tutmuşdum və əlbəttə ki, 80 yaşda kefini soruşmağa, hal-əhval tutmağa gəlmişdim...

Qapını üzümüzə özü açdı və baxışlarından: "Demək unudulmamışıq, yaddan çıxmamışıq" cümləsini birnəfəsə oxudum...

Gəlişimin məqsədini anlamışdı və "Sözə başlamazdan öncə gəl səninlə çörək kəsək" deyəndə bu gün köhnədi, quruyub deyə kimlərinsə küçələrə atdığı, polietilen torbalarda zibil yeşiklərinin kənarına qoyduğu o müqəddəs nemət gözlərimin önünə gəldi. Çörəyin müqəddəsliyini, hansı əziyyətlərlə başa gəldiyini çörəyi sevənlər və əli zəhmətlə çörəyə çatanlar yaxşı bilir...

1986-cı ildən indi yaşadığı evin işığı yanır. Bu ocaqdan iki qız bala pərvazlanıb, gəlin köçüb. Nəvələrin ayağı bu ocaqda yer tutub, dilləri burda açılıb. Xatırladanda ki, 75 illik yubileyi ilə bağlı kiçik bir təbrik yazısı yazmışdım və bu gün 80-nin sevincini yazmaq da nəsib oldu, gülümsəyib: "O zaman doxsanı, yüzü də sən yazarsan",- dedi.

Yazmaq könül işidir və Vətən sevdalı ürək sahiblərindən, bu xalqın yaddaşına hopanlardan, bu dövlətin qurulmasında, onun möhkəmlənməsində əməyi olanlardan yazanda söz səndən uzaq qaçmır, onun hənirini, istisini hiss edirsən.

Yaddaşı yerindədir təqaüddə olan polis polkovniki Məhəbbət Məhərrəmovun. Xatirələrini danışmağa xəsislik etmir, amma ötənləri xatırlayanda kövrəlməmək də mümkün deyil. Ata, ana, dünyasını dəyişmiş dostlar, xatirəsi ürəkdə yuva quran yaxınlar, uzaqlar...

Əslən bu gün düşmən tapdağında inləyən Şuşadandır. Atasını təyinatla Ermənistana göndəriblər və o, 1939-cu il sentyabrın 21-də Hamamlıda (Spitak) doğulub. Atası müharibəyə gedəndə onun iki yaşı olub. Orta məktəbə Naxçıvanda gedib. Sonra Bakıya köçüblər. Ali Partiya Məktəbini bitirən atası müxtəlif vəzifələrdə çalışdıqdan sonra milisin sıralarına qəbul olunub. Balaca Məhəbbət kiçik yaşlarından dəmir nizam-intizam görüb və həyatın qoynuna atılanda çətinliklər onu qorxutmayıb.

Deyir ki, 14 yaşından özü çörək qazanıb, maaş alıb. Bakı Neft Texnikumunu bitirdikdən sonra Sabunçu mədənlərində işləyib. Günü qara olmasa da, üstü-başı həmişə qara məzutlu, neftli olub. O, əslində barmaqla sayılacaq azərbaycanlılardandır ki, Ukraynada Hava hücümündan müdafiə bölmələrində hərbi xidmət keçib. Çünki o zaman azərbaycanlıları bilərəkdən tikinti-inşaat üzrə olan hərbi hissələrə göndərirdilər. Açığı, əziyyət görmək istəməyən, silahı, texnikanı öyrənməyə ərincəklik edən həmvətənlərimizin çoxunun ürəyindən idi inşaatda xidmət etmək. Onun sayıqlığı nəticəsində düşmənin casus hava şarı aparatı müəyyənləşdirilir və məhv edilir. Rus dilini mükəmməl bilən həmkarımızı həmin hadisədən sonra hərbi hissə rəhbərliyi komsomol katibi təyin edir. O, qeyri-millətlərdən fərqlənməyi həmişə bacarıb. Həm də boks üzrə respublika və paytaxt çempoinatlarında peşəkar boksçu kimi sözünü deməsi hərbi xidmətdə də köməyinə çatıb, həmvətənlərimizi ağlının və yumruğunun gücü ilə qoruyub.

İnstituta imtahan verəndə əynində əsgər şineli, ayağında əsgər çəkmələri vardı...

Gündüzlər işləyib, axşamlar oxuyub. Əlinin qabarı ilə gözünün nuru onu qaranlıqdan işığa çıxarıb. İnstitutu bitirdikdən və komsomola keçdikdən sonra bir çox vəzifələrdə işləyib. Ali Partiya Məktəbini bitirib. Təbliğat və təşviqat üzrə mütəxəssislər hazırlmaq o zamankı ideologiyanın ayrılmaz hissəsi idi və bu işə həm kifayət qədər maliyyə ayrılırdı, həm də vaxt. Çünki dövlətçilik dayaqlarının möhkəmləndirilməsi üçün bu ən vacib şərtlərdən idi.

O vaxt nəyi və necə təbliğ edirdiniz sualıma cavabı belə oldu: Vətəni sevməyi.

Bu gün təəssüflər olsun ki, ölkəmizdə bəzi qüvvələr bölücülüklə məşğul olur, müstəqilliyimizi, inkişafımızı gözü götürməyənlərin istəklərini yerinə yetirməkdən ötrü hər rəngdə siyasi don geyinib Azərbaycanı 90-cı illərə qaytarmaq istəyirlər.

Mövzudan kənar olsa da, etiraf edək ki, təbliğat və təşviqat işlərində biz "SSRİ"dən geridəyik...

Tədbirlərin birində çıxış edərkən Məhəbbət Məhərrəmov o zamankı Daxili işlər naziri Cəfər Vəliyevin diqqətini cəlb edir. Mərkəzin Komitənin qərarı ilə onu 1980-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində Siyasi tərbiyə işləri üzrə şöbəyə müavin təyin edirlər. Bu vəzifəyə təyin olunduqdan sonra o, ulu öndərimiz Heydər Əliyevlə görüşür, onun tövsiyələrini dinləyir. DİN-in İslah Əmək Müəssisəsində rəis müavini, Bakı Şəhər Daxili İşlər İdarəsində şöbə rəisi, rəis müavini, DİN Pasport, Qeydiyyat İdarəsində rəis müavini işləyib. 1992-ci ildə o da daxili işlər orqanlarının bir çox peşəkarları kimi polis polkovniki rütbəsində AXC tərəfindən vəzifədən uzaqlaşdırılıb. Lakin "Haqq nazilər, üzülməz" deyiblər. Ulu öndər ali hakimiyyətə ikinci dəfə qayıtdıqdan və 1994-cü ildə Daxili İşlər Nazirliyində aparılna islahatlardan sonra rəhbərlik onları yenidən xidmətə qaytarır. Qarabağ ətrafında baş verən hadisələr zamanı dəfələrlə xidməti ezamiyyətlərdə olub, ömrünü güllələrdən bir addımlıq məsafə ayırıb.

Qocaman həmkarımız 1996-cı ildə daxili işlər orqanlarından yaş həddinə görə təqaüdə göndərilib. DİN Veteranlar Şurasının üzvüdür...

80-nin "dizini" yerə qoysa da, yenə də Vətənpərvərlik ruhu, vətəndaş yanğısı ilə DİN-də və məktəblərdə, əmək kollektivlərində keçirilən tədbirlərdə fəal iştirak edir, necə deyərlər, beləcə canından illərin yorğunluğunu çıxarır...

*Hafiz TƏMİROV*
*polis mayoru*

**Sözardı: Mən əslində onu dünən - sentyabrın 20-i Neftçilər günündə də təbrik etməliydim. O, polis olmazdan öncə nefçi idi, neftli əlləri ilə çörək qazanmışdı. Bütün peşələr çətindir və gözəldir. Yetər ki, sahibi olduğun sənət, qulpundan tutduğun iş həm özünün, həm də Vətənin başını ucaltsın...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# DOST mərkəzləri müasir Azərbaycanın siması kimi...

## DOST qapısı, Azərbaycan brendi...

**Ta qədimdən insanlar çətinə düşəndə, yardım üçün dost qapısına üz tutub. Bu qapı isə onların üzünə hər zaman taybatay açılmırdı, çox vaxt dostun imkanı həddində, bəzən hətta təsəlli səviyyəsində "aralanırdı". Bu gün də Azərbaycan insanının sosial problemlərinin həlli üçün üz tutacağı bir DOST qapısı var, amma bu DOST o dostdan deyil. Bu DOST böyük anlamda vətəndaşına dəstək duran, onun bütün problemlərinin həllinə yardımçı olan DÖVLƏTin özüdür...**

Ötən ilin avqustunda Azərbaycan dövləti özünün prioritet elan etdiyi sosial islahatlar kontekstində yeni bir ilkə imza atdı - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Operativ Sosial Təminat Agentliyi (DOST) publik hüquqi şəxs yaradıldı, bu ilin mayında isə Agentliyin Bakının Yasamal və Səbail rayonlarının sakinlərinə xidmət edəcək ilk DOST Mərkəzi istifadəyə verildi. Sosial sahənin Azərbaycan dövləti üçün prioritet olduğunu deyən Prezident İlhan Əliyev Mərkəzin açılışında bildirdi ki, bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar artıq özünü göstərir:"DOST Agentliyinin yaradılması bu istiqamətdə atılmış çox önəmli islahatdır. Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi, əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir. Sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq, bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin".

### "GƏNC", "GÜMÜŞÜ" və "VİRTUAL" DOST(çu)lar…

Həmin tarixdən keçən qısa zaman kəsiyi buranın insanlarımız üçün əsl DOST ünvanı olduğunu təsdiqlədi. Düzdür, hazırda dünya təcrübəsində buna bənzər layihələr var, lakin DOST mərkəzləri əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin "bir pəncərə"dən təqdim edildiyi, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən çox unikal və hələlik yeganə layihədir. O üzdən, ASAN xidmətdə olduğu kimi, DOST mərkəzlərini də əminliklə sosial xidmətlər sahəsində Azərbaycanın yeni brendi adlandırmaq olar.

DOST Agentliyinin mərkəzi aparatında 315 nəfər, DOST mərkəzlərində kateqoriyasından asılı olaraq 50-100 nəfər xüsusi təlim keçən sosial agent və sosial işçilərin fəaliyyət göstərməsi nəzərdə tutulub. Hazırda burada vətəndaşlara 40-dək sosial agent xidmət göstərir. Bunlardan əlavə, Mərkəzdə "Könüllü DOST" proqramı əsasında 50 nəfərə yaxın könüllü də fəaliyyət göstərir. İşin maraqlı tərəfi isə bu könüllülərin üç kateqoriyaya bölünməsidir. Belə ki, burada gənclərə "Gənc Könüllü" kateqoriyasından olan şəxslər, təqaüd yaşındakı vətəndaşlara isə "Gümüşü Könüllü"lər yardımçı olur. Mərkəzə gələn vətəndaşları istədikləri xidmətlərə yönləndirən, yaxud hər hansı bir müraciətin, ərizənin doldurulmasında onlara yardımçı olan bu könüllülərin kateqoriyalara bölünməsinin əsas özəlliyi ondadır ki, onlar öz həmyaşıdları ilə daha tez ünsiyyət qurur, onları daha yaxşı anlayırlar. Üstəlik bu, "Gümüşü Könüllü"lərin sıralarında çalışan təqaüdçülərin günlərini mənalı etmələri və cəmiyyətə hələ lazım olduqlarını hiss etmələri üçün onlara yaradılan çox gözəl bir imkandır. Belə ki, onlar boş vaxtlarını səmərəli keçirmək üçün bura gəlir, gənclərlə çiyin-çiyinə çalışır, vətəndaşlara xidmət edir, eyni zamanda təcrübələrini gənc kadrlarla bölüşürlər və bu, ahıl insanlarımızın həyatına rəng qatmaqla onlara stimul vermis olur. Gələcəkdə isə Mərkəzdə "Virtual Könüllü"lərin fəaliyyəti nəzərdə tutulub ki, adından da göründüyü kimi, onlar insanlara virtual məkanda operativ xidməti təmin edəcək. Texnika və innovasiyalar dövründə virtual xidmətin əhəmiyyətini, yəqin ki, əlavə şərh etməyə ehtiyac yoxdur və Agentliyin bu istiqamətdə fəaliyyətini təmin etməsi bütün yaş kateqoriyalarından olan insanlarımızın Mərkəzə gəlmədən istənilən sorğu ilə bağlı müraciətinin təmin olunmasına unikal imkan yaradacaq.

### "Bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir…"- Prezident İlham Əliyev

Prezident İlham Əliyev DOST Mərkəzinin açılışındakı çıxışında daha sonra bildirib ki, dövlətin siyasəti bütövlükdə bu mərkəzlərin fəaliyyətində öz əksini tapır:"Bizim siyasətimiz, demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək".




Agentliyin mətbuat xidmətinin rəhbəri Şahin Əliyev isə DOST layihəsini Azərbaycanda sosial sahədə əhaliyə göstərilən xidmətləri daha yüksək səviyyəyə qaldırmaq üçün yaradılan bir konsepsiya adlandırır: "Bu mərkəzdə ilk növbədə sosial sahədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göstərdiyi xidmətlər təqdim olunur. Bu xidmətlər hamısı bir mərkəzdən, şəffaflıq prinsipinə uyğun olaraq, süründürməçilik hallarına yol verilmədən, ən müasir innovativ metodlardan istifadə edilməklə göstərilir. Burada əsas məqsəd ilk növbədə vətəndaşların qərar verən məmurlarla birbaşa əlaqəsini aradan qaldırmaqdır ki, xoşagəlməz hallara, o cümlədən korrupsiya hallarına yol verilməsin və bütün proseslər tam şəffaf keçsin".

Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması dövlətin prioritet vəzifəsi olacaq. 2019-cu ilin əvvəlində artıq Azərbaycan əhalisi bunun böyük sevincini yaşadı. Belə ki, dövlət başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu.

Hazırda ikinci paketin də icrası ilə bağlı hazırlıq işləri tamamlanıb və sentyabrın 1-dən minimum əmək haqqı 250 manata çatdırılıb ki, bununla da əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunacaq. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi ümumilikdə 4,2 milyon vətəndaşı əhatə edəcək. Minimum pensiya 72 faiz artırılıb. Hesablamalara görə, bütün bu islahatların nəticəsində ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq. Minimum əmək haqqının 250 manata çatdırılması ilə isə Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Müavinətlərin və təqaüdlərin artırılmasının da müvafiq kateqoriyadan olan insanların sosial durumunun yaxşılaşmasına səbəb olacağı şübhə doğurmur. Belə ki, bu artım 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə 1,3 milyon insanı əhatə edir.

### Ölkə başçısından sosial sığorta sahəsində inqilabi addım, 13 min nəfərin pensiya sevinci...

Azərbaycan Prezidentinin daha bir təşəbbüsü isə sosial sığorta sahəsində əsl inqilab kimi dəyərləndirilə bilər. Belə ki, ölkə başçısının müvafiq fərmanı ilə 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanacaq. Bu isə heç bir bürokratik əngəl olmadan 13 min nəfərə pensiya təyin olunması deməkdir ki, bu da əhalinin sosial təminatı sahəsində çox ciddi islahat sayılmalıdır. Hesablamalara görə, il ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi bu qərardan yararlana biləcək.

DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov deyir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxs, yəni DOST Agentliyi Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılıb. Fərman, həmçinin, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat, habelə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun digər sahələrdə xidmətlərin həyata keçirilməsini təmin edən DOST mərkəzlərinin yaradılmasını nəzərdə tuturdu. Həmin Fərmana uyğun olaraq ilk DOST mərkəzi bu il mayın 9-da Bakının Yasamal rayonunda, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılıb. Mərkəzdə, ümumilikdə, "bir pəncərə" prinsipi ilə 130-dan çox elektron xidmət göstərilir. Bu sıraya "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Sosial xidmətlər və övladlığa götürmə məsələləri", "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" və digər xidmətlər daxildir. İdarə Heyəti sədrinin sözlərinə görə, 1 saylı Bakı DOST mərkəzində il ərzində 100 mindən çox vətəndaşa xidmət göstərmək mümkündür. Açılışından bugünə kimi mərkəzə 24 minə yaxın vətəndaşın müraciət etdiyini deyən Fərid Məmmədovun sözlərinə görə, ilkin mərhələdə Bakının Yasamal və Səbail rayonlarının sakinləri üçün nəzərdə tutulan mərkəzdə gün ərzində təxminən 350-400 vətəndaş müraciəti qeydə alınır. Təqdir olunası haldır ki, bu mərkəzdə xidmətin səviyyəsinə xüsusi diqqət yetirilir və bunu İdarə Heyəti sədrinin sözlərindən də görmək olar. O deyir ki, növbəti mərhələdə informasiya mənbələrinin sayı bir qədər də artırılacaq və bir neçə mənbədən istifadə ediləcək ki, bu da həmin xidmət sahəsində vətəndaş məmnunluğuna nə dərəcədə nail olunduğunu aydınlaşdıracaq:"Biz, ümumilikdə, DOST xidmətlərindən insanların nə dərəcədə razı qaldıqlarını müəyyənləşdirmək istəyirik. Buna görə də bilavasitə elektron sistem və könüllülər vasitəsilə aparılan sorğudan əlavə, çağrı mərkəzinin xidmətlərindən, kargüzarlığa göndərilən işlərin nəticəsindən vətəndaşın razılıq səviyyəsi və həmçinin sosial şəbəkələrdə yayılan rəylər də nəzərə alınacaq. Beləliklə, bir neçə mənbədən alınan informasiya məmnuniyyət səviyyəsini daha dəqiq ölçməyə imkan verəcək. Əsas məqsədimiz isə budur ki, indi fəaliyyət göstərən 1 saylı Bakı DOST mərkəzinə və gələcəkdə açılacaq digər mərkəzlərimizə gələn heç bir vətəndaş buradan narazı getməsin. Buna isə işi daim təkmilləşdirməklə nail olmaq mümkündür".

Deyilənlərə onu da əlavə edək ki, DOST Agentliyinin E-sosial portalı, E-pensiya və məşğulluq altsistemi də fəaliyyət göstərir. Əhalinin bütün kateqoriyaları üçün müraciətlərin əlçatanlığı məqsədilə təşkil olunmuş bu xidmətlər isə DOST Mərkəzinin fəaliyyətində onun adındakı operativliyə əməl olunmasının nə dərəcədə prioritet olduğunun real təsdiqi sayıla bilər.

### DOST bütün Azərbaycanı əhatə edəcək və bu DOST o dostdan deyil...

Mərkəzin açılışında o da bildirilib ki, 2025-ci ilədək ölkə ərazisində 31 DOST mərkəzinin açılması hədəflənir. Bu ilin sonunadək və gələn ilin əvvəlində isə bir neçə mərkəzin açılması planlaşdırılır. Bu isə o deməkdir ki, tezliklə Azərbaycanın bütün ərazisi üzrə vətəndaşlar DOST xidmətləri ilə əhatə olunacaq və onların problemlərinin həllinə əlçatanlığı təmin olunacaq.

İnsan həyatı boyu çoxları ilə dost olur. İllər ötdükcə, bərkə-boşa düşdükcə onların yaxşı, yoxsa yaman günün dostu olduğu ortaya çıxır və bu fərq ortaya çıxdıqca dostların sırası seyrəlir, sosial problemlərin içində boğulan insanların isə ümumiyyətlə dostu qalmır. Yazının əvvəlində də dediyimiz kimi, barəsində bəhs etdiyimiz DOST isə o dostdan deyil və nə yaxşı ki, Azərbaycan insanının həyatında onu problemi çoxaldıqca tərk etməyəcək, hətta əksinə, ona əsl dost əli uzadacaq bir DOST var.

İşinizdə uğurlar sizə, DOSTlar!

***Samirə SƏFƏROVA***

**Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçün.**

# Elmi fəaliyyətə meylli Azərbaycan qadınlarının sayında artım var

***İlqar Orucov:** "Çox istedadlı gənclər olub ki, onlar doktoranturanı bitirib elmi iş müdafiə etdikdən sonra elm sahəsində qalmadılar və digər sektorlara üz tutdular"*

**Son zamanlar oğlanlarla müqayisədə qızların elm sahəsinə daha kütləvi maraq göstərməsinin şahidi oluruq. Oğlanların çoxu magistraturanı bitirdikdən sonra elmə deyil, başqa sahələrə üz tutur, qızlar isə əksinə, elm sahəsində irəliləməyə can atırlar. Elə bunun nəticəsidir ki, bu gün ali təhsil müəssisələrində, eləcə də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müvafiq institutlarında daha çox qız və qadınlarla rastlaşırıq.**

Bu gün dərs demək üçün auditoriyaya girənlər arasında da qadınların sayı üstünlük təşkil edir.

Yayılan statistik məlumatlara görə, son 18 ildə Azərbaycanda elmi tədqiqatla məşğul olan qadınların sayı artıb. 2000-ci ildə ölkədə 3 572 qadın elmi tədqiqat və işləmələrlə məşğul olub. 2010-cu ildə bu say 5 096-a, 2018-ci ildə 5 117 nəfərə çatıb.

2010-cu ildə tədqiqat və işləmələrlə məşğul olanların 2 312-i, 2018-ci ildə isə 3 459-u sırf tədqiqatçı, qalan şəxslər isə texniklər, köməkçi heyət və s. olub.

Tədqiqatçı qadınların çoxu - 2 037 nəfəri elmin təbiət sahəsi üzrə araşdırmalar aparır. Qadınların elmdə təbiət istiqamətindən sonra daha çox araşdırma apardıqları sahə humanitardır.

2018-ci ilin məlumatlarına görə, ölkədə 832 qadın humanitar sahə üzrə tədqiqat aparır. Qadınların elmdə ən az diqqət göstərdikləri sahə tibbdir. Ötən il cəmi 3 nəfər qadın tibb sahəsi üzrə tədqiqat işi aparıb. Həmin şəxslərdən yalnız birinin elmi dərəcəsi (fəlsəfə doktoru) olub. 2010-cu ildə elmi tədqiqat və işləmələrlə mşğul olan qadınların 63-ünün, 2018-ci ildə 149-nun elmlər doktoru, 2010-cu ildə 805-inin, 2018-ci ildə 1 040-nın fəlsəfə doktoru elmi dərəcəsi olub.

Qadınların elm sahəsində üstünlük təşkil etməsi hansı amillərlə bağlıdır?

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin rəhbəri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bunun olduqca aktual mövcu olduğunu bildirdi. İ.Orucovun qeyd etdiyinə görə, Azərbaycan elmində, xüsusən də humanitar sahədə qadınların üstünlük təşkil etməsi tendensiyası formalaşıb: "Çox təəssüf edirəm ki, ölkəmizdə müəllimdən danışanda hər kəs onu qadın kimi təsvir edir. Bu olduqca zərərli tendensiyadır və çoxlarımız bunun fərqinə varmaq istəmirik. Qadın müəllimlərin sayının artması oğlanların bir kişi olaraq formalaşmasında öz mənfi təsirini göstərir. Bunu psixoloqlar da, pedaqoqlar da deyirlər. Heç kəs deyə bilməz ki, müəllimlik peşəsi qadın peşəsidir, sadəcə olaraq artıq bizdə belə bir ənənə formalaşıb. Təəssüflər olsun ki, bu tendensiya get-gedə artmaqdadır. O ki, qaldı qadınların elm sahəsində sayının artmasına, bu da uzun müddətdir Azərbaycanda müşahidə olunmaqdadır. Xüsusilə də dövlət müstəqilliyindən sonra bu hal geniş vüsət almağa başladı. Bilirsiniz ki,Azərbaycan bir müddət müharibə vəziyyətində yaşadı. Eyni zamanda da biz keçid dövrünü yaşadıq və həmin dövrdə də elmə çox az vəsait ayrıldı, əməkhaqqı kifayət qədər aşağı idi deyə, nəinki kişilər elmə gəlmədi, hətta elmdə olan kişilərin də bir çoxu bu sahədən uzaqlaşdı. Sonrakı dövrlərdə biz bunun mənfi təsirlərini əsasən nədə gördük? Biz zaman-zaman həyəcan təbili çalırdıq ki, kişilərin elmə maraq göstərməməsi düzgün deyil və magistratura pilləsində oxuyan oğlanlara mütləq hərbi möhlət hüququ verilməlidir. Elmi fəaliyyət belədir ki, burada ardıcıllıq olmadıqda əlaqə itir və hərbiyə getmiş oğlanların çoxu qayıtdıqdan sonra, ümumiyyətlə, elmə maraq göstərmir. Bilirsiniz ki, ali təhsilli oğlanlar əsgərlikdə olduqları 1 il müddətində elmdən xeyli uzaqlaşırlar, bildiklərinin bir çoxunu unudurlar və nəticədə də elmdən tamamilə soyuyurlar. O zaman biz bununla bağlı həm müvafiq qurumlara, həm də ölkə başçısına müraciətlər göndərirdik ki, bunun qarşısı alınmalıdır və elmlə məşğul olmaq istəyən oğlanların magistratura və doktorantura pilləsində hərbi xidmətlə bağlı möhlət hüququ tanınmalı və bu, qanunda öz əksini tapmalıdır. Fikrimizi onunla əsaslandırırdıq ki, ümumiyyətlə, hər bir elmlə məşğul olan insanın elmdə ölkəyə qazandırdığı dividendlər, gətirdiyi xeyir heç də hərbidə verəcəyi xeyirdən az deyil. Bugünkü dünyanın çağırışlarından bu məsələyə baxsaq görərik ki, əslində, müharibələrin özü də çox zaman silahla aparılmır, intellektlə, yeni texnologiyalarla, informasiya ilə aparılır. Əlbəttə, bütün bunların kökündə də elm durur. Bir elm adamının vətənə gətirdiyi xeyir başqa mütəxəssislərin gətirdiyi xeyirdən qat-qat üstündür. Təsadüfi deyil ki, cənab Prezident çağırışlar edərək insanları intellektual, yeni texnologiyaları mənimsəmiş, Azərbaycanı elm, təhsil ölkəsi kimi görmək istədiyini dilə gətirir. Bununla bağlı siyasi mövqe ortaya qoyuldu. Bundan çıxış edərək qeyd edirdik ki, oğlanların elmə gəlməsinin qarşısını alan faktorların üzərinə getmək lazımdır və bununla bağlı problemin qarşısı alınmalıdır. Oğlanların elmə gəlməsinin yolları açılmalıdır. Çox təəssüflər olsun ki, uzun müddət bu məsələ həll olunmamış qalmışdı, sonradan öz həllini tapdı. Bu müddətdə isə elmə gələn qadınların sayında ciddi artım baş verdi. Kişilərin elm sahələrinə meyl göstərməməsində digər bir məsələ ondan ibarətdir ki, Azərbaycan ailələrində yük kişinin üzərinə düşür və ailənin xərclərinin böyük bir hissəsini kişi qarşılamalıdır. Elmlə məşğul olan insanların əməkhaqqı kifayət qədər azdır və elmlə məşğul olan adamın dolanışığı çox çətin olur. Bu baxımdan, kişilər alternativ sahələrə üz tutdular. Bizim çox istedadlı gənclərimiz var ki, onlar elmə gəlsəydilər, çox ciddi töhfələr verə, Azərbaycan elminin inkişafı ilə bağlı çox faydalı işlər görə bilərdilər. Ancaq təəssüf ki, onlar elmdən soyudular. Çox istedadlı gənclər olub ki, onlar doktoranturanı bitirib elmi iş müdafiə etdikdən sonra elm sahəsində qalmadılar və digər sektorlara üz tutdular, elmdən uzaqlaşdılar, bu və digər belə hallar nəticəsində də elmdə qadınlaşma prosesi davam etməyə başladı. Bir məsələyə toxunum. Biz Avropa Gənc Alimlər Şurasının üzvüyük. Bir dəfə Brüsseldə elmdə gender balansı ilə bağlı bir toplantı keçirilirdi. Biz orada qeyd edəndə ki, Azərbaycanda elmdə qadınların sayı artan xətt üzrə gedir, onlar buna inanmırdılar. Deyirdilər ki, Azərbaycan müsəlman ölkəsidir və necə olur ki, belə bir ölkədə qadınlar elmə kütləvi gəlirlər. Onlar bizdəki real statistikanı bilmirdilər. Ali Attestasiya Komissiyasının da bununla bağlı konkret rəqəmləri var və elmə qadınların gəlməsini təsdiq edən ciddi faktlar mövcuddur".



*"Qadınların elmdə sayının artması və kişilərin elmə gəlməməsi bizim elmimizə öz mənfi təsirlərini göstərməkdədir"*

İ.Orucovun sözlərinə görə, bu gün AMEA-nın elmi-tədqiqat institutlarında, ali məktəblərdə qadınların çoxluq təşkil etdiyini müşahidə etmək mümkündür. O vurğuladı ki, bu müəssisələrdə işləyənlərin böyük əksəriyyəti qadınlardır. "Mən qətiyyən o fikirdə deyiləm ki, qadınlar elmdə olmamalıdırlar, onlar elm sahəsində olmalıdırlar. Ancaq bu tendensiyasının bu qədər qadınların xeyrinə dəyişməsi çox zərərlidir, düzgün olmayan haldır, bu faktor Azərbaycan elmini kifayət qədər geri salır. Mən bunu o baxımdan deyirəm ki, Azərbaycan qadınının, bütövlükdə, cəmiyyətdə, bizim mentalitetdə formalaşmış əsas bir missiyası var. Bu missiya ondan ibarətdir ki, Azərbaycan qadını daha çox ailəyə, evə bağlıdır və biz bunu təcrübədə də görürük. Müşahidə edirik ki, qadınlar elmdə çalışsalar da, onların fikri əsasən ailəsində olur. Tutaq ki, qadın elmə gəldi, doktoranturanı bitirib ailə qurdu. O, ailə qurduqdan sonra analıq məzuniyyətinə gedir, müəyyən problemlərlə üzləşir. Bu halda məcbur olur ki, elmə az diqqət yetirsin və elmdən uzaqlaşsın. Deməzdim ki, qadınlar elmdə kişilər qədər ciddi uğur əldə edə bilirlər. Bu reallıqdır. Bundan çıxış edərək qeyd etmək istəyirəm ki, qadınların elmdə sayının artması və kişilərin elmə gəlməməsi bizim elmimizə öz mənfi təsirlərini göstərməkdədir. Çünku əvvəlki dövrlərdə elmə gələn kişilər nə qədər ki, hələ elmdədir, bunu ciddi hiss etmirik, amma gələcəkdə hiss edəcəyik və bunun mənfi təsirlərini görəcəyik. İstedadlı oğlanların elmə gəlməsi üçün şərait genişləndirilməlidir. Əslində, son dövrlərdə bununla bağlı müəyyən işlər görülür. Dünya təcrübəsi var və o təcrübəyə əsasən, elm dövlət büdcəsindən maliyyələşməməli, özü pul qazanmalıdır. Təəssüflər olsun ki, bu bizdə o şəkildə formalaşıb. Elmdən pul qazanmaq deyəndə bizim elmi müəssisə rəhbərləri bunu hansısa binaları icarəyə vermək yolu ilə gəlir əldə etmək kimi anlayırlar. Əslində isə elə deyil" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi Bakıdakı arıçılıq məhsullarının satış yarmarkasına çıxarılması planlaşdırılan bal nümunəsindən 25-nin keyfiyyətinin aşağı olduğu müəyyən edib.**

# Saxta balı bazara dartmaq sezonu başladı - 395 nümunədən 25-i saxta çıxdı

***Fuad İbrahimli:** "Yarmarkaya saxta məhsul təqdim edənlər inzibati məsuliyyətə cəlb olunmalıdırlar"*



Agentliyin yaydığı məlumatda qeyd olunur ki, arıçılıq məhsulları "Aqrar Tədarük və Təchizat" ASC-nin Xocahəsən yolu 57 (Meyvəli bazarı) ünvanında yerləşən anbarına daxil olduqdan sonra qurumun əməkdaşları tərəfindən nümunələr götürülür. Bal yarmarkasına satış üçün gətirilən ballar arasında keyfiyyət göstəriciləri aşağı olan məhsullar aşkarlanıb. Məlumatda qeyd edilir ki, nümunələrin götürülməsinə 14 sentyabr tarixində başlanıb və bu günədək 1795 bal nümunəsi götürülüb, onlardan 1395-nin müayinəsi aparılıb: "395 bal nümunəsindən 25-nin keyfiyyətinin aşağı olduğu müəyyən olunub, digər 1000 nümunənin nəticələri sınaq protokolları tərtib olunandan sonra açıqlanacaq. Yarmarkada yalnız təhlükəsizlik və keyfiyyət göstəriciləri normalara uyğun olan məhsulların satışına icazə veriləcək".

Qeyd edək ki, 28 sentyabr - 18 oktyabr tarixlərində keçiriləcək arıçılıq məhsullarının 20-ci Respublika sərgi-satış yarmarkasında satışa çıxarılması nəzərdə tutulan bal məhsullarından nümunələr götürülərək Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində fəaliyyət göstərən Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında ekspertizaya cəlb edilir.

Artıq neçə ildir Bakıda bal yarmarkası keçirilir. Bal yarmarkasına ölkənin dörd bir yanından arıçılıq təsərrüfatı ilə məşğul olanlar istehsal etdikləri məhsulu satış üçün gətirirlər. Gətirilən ballar arasında keyfiyyət göstəricisi aşağı olan məhsullar da var.

*"Saxta balın olmaması üçün bölgələrdə və iri şəhərlərdə də keyfiyyətli yoxlama məntəqəsi yaradılmalıdır"*

İqtisadçı-ekspert Fuad İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, saxta balın olmaması üçün bölgələrdə və iri şəhərlərdə də keyfiyyətli yoxlama məntəqəsi yaradılmalıdır. Bal satışa çıxarılmazdan öncə sahibkara həmin məhsulla bağlı sertifikat verilməlidir: "Saxta bal məhsulunun qarşısını almaq üçün fermerlər arasında müəyyən maarifləndirmə işi aparılmalıdır. Eyni zamanda, yarmarkaya saxta məhsul təqdim edənlər inzibati məsuliyyətə cəlb olunmalıdırlar".

Həmsöhbətimizin sözlərinə görə, təbii bal yetişdirən insanlara müəyyən köməklik göstərilməlidir. Fermerlər arıçılıq məhsulları ilə bağlı preparatlarla təmin olunmalıdırlar. Daha sonra fermerlərə güzəştli şərtlərlə kredit ayrılmalıdır. Süni maneələrin aradan qaldırılması üçün arıçılıqla məşğul olanlara şərait yaradılmalıdır.

*Günel CƏLİLOVA*

**Bu gün dünyada sürətlə inkişaf edən estetik təbabət həm qadınların, həm də kişilərin diqqətini çəkir. Dünyanın elə bir ölkəsi tapılmaz ki, orada estetik əməliyyata güclü meyl olmasın. Azərbaycanda da estetik əməliyyatlara meyl edənlərin sayında kəskin artım var.**

# Silikon canlar almağa, adam öldürməyə başlayır...

***Aynurə Həsənova:** "Silikon edilən nahiyəyə kifayət qədər qan gələ bilmədiyi üçün, burada müqavimət azalır, hər cür infeksiya, mikrob bura daxil olub iltihab yarada bilir"*

***Leyla Bayramlı:** "Silikon çox insanın sağlamlığını əlindən alıb və onları müxtəlif xəstəliklərə düçar edib"*



Hazırda nəinki sənət adamları, eləcə də sadə insanlar kütləvi olaraq estetik əməliyyata girir və bədənlərinin müxtəlif üzvlərində dəyişikliklərə nail olurlar.

Bu gün cəmiyyətləri ən çox təhdid edən silikonlardır ki, Azərbaycanda da qadınların xeyli qismi sinələrinə, dodaqlarına, yanlarına, ayaqlarına və s. orqanlarına silikon qoydurmaqdan çəkinmir. Baxmayaraq ki, həm uğursuz estetik əməliyyatların, həm də silikonların ciddi fəsadları var və bu hətta qadınların ağır xəstəliklərə tutulmasına, eləcə də dünyasını dəyişməsinə səbəb olur, heç kəs bundan imtina etmək istəmir.

Ekspertlər qeyd edirlər ki, bu gün dünya miqyasında ən çox həyata keçirilən estetik cərrahi müdaxilələrdən biri də sinə böyütmə əməliyyatlarıdır ki, bu əməliyyat döşlərə yerləşdirilən silikon əsaslı protezlərlə həyata keçirilir. Məlumatlara görə, Azərbaycan qadınları da sinə böyütmə və sinə kiçiltmə prosedurlarından bəhrələnirlər. Bu əməliyyatlar nə qədər çox keçirilsə də, döşlərə qoyulan silikonların zərərli olub-olmaması ciddi mübahisə mövzularından biridir. Bir sıra mütəxəssislər özləri qeyd edirlər ki, elə insan var onun orqanizmi silikonları qəbul etmək iqtidarında deyil. Mütəxəssislər vurğulayırlar ki, sinə qadının estetik görünüşünə çox əhəmiyyətli dərəcədə təsir edir. Buna görə də təsadüfi deyil ki, çox sayda qadın döşlərini bir və ya iki ölçü böyütmək üçün bu əməliyyata müraciət edir. Onlar qeyd edirlər ki, əməliyyat sonrası fiziki dəyişikliyə əlavə olaraq, psixoloji cəhətdən də qadınlar özlərini daha yaxşı hiss etdiklərini, özgüvənlərinin artdığını bildirirlər.

Mütəxəssislərin verdiyi bilgiyə görə, döş böyütmə əməliyyatının sadə forması 1800-cü illərdə tətbiq edilməyə başlanıb. Silikon protezlər isə 1960-cı ildən bu yana döş böyütmə əməliyyatında istifadə olunur. Estetik əməliyyatları müdafiə edən həkimlər silikonun bədənə hər hansı bir zərəri olmadığını desələr də, baş verən hadisələr bunun əksini düşünməyə əsas verir.

Məlum olduğu kimi, qadınlar və bəzi kişilər dodaqlarını da silikon etdirirlər. Azərbaycanda dodaqlarını silikon etdirənlər də çoxdur.

Plastik, rekonstruktiv və estetik cərrah İlyas Axundzadənin verdiyi məlumata görə, silikon anlayışı çox səhv bir anlayışdır, amma təəssüf ki, dilimizə sirayət edib. "1950-ci illərdə Amerikada maye silikondan istifadə pik həddə çatmışdı və hər yerdə istifadə edilirdi. 1960-cı illərdə bunun bir çox fəsadı ortaya çıxdı. Bundan sonra həm Amerikada, həm də Avropada maye silikon qadağan edildi" -deyə qeyd edən mütəxəssis bildirib ki, qabaqcıl ölkələrdə qadağan edilən maye silikonlar bu dəfə Rusiyanın kəndlərinə ayaq açır və geniş istifadə edilir. Təəssüf ki, zamanla Azərbaycanda da özünə müştəri tapır.

Hazırda maye silikon müxtəlif adlarla, ən çox da biopolimer adı ilə çox ucuz qiymətə satılır. Buna görə də xanımlar dodaqlarını böyütmək və qırışları açmaq üçün maye silikondan istifadə edirlər. Baxmayaraq ki, bütün ölkələrdə ondan istifadə, onun dəri altına yeridilməsi qadağan edilib.

Həkim-trixoloq Aynurə Həsənovanın sözlərinə görə isə silikonun fəsadları saçılmazdır. Mütəxəssisin sözlərinə görə, silikon yad maddədir və o, bədənə vurulduqda bədən onun ətrafında çəpər hörməyə çalışır və çox sərt çapıq toxuması əmələ gəlir. "Silikon edilən nahiyəyə kifayət qədər qan gələ bilmədiyi üçün, burada müqavimət azalır, hər cür infeksiya, mikrob bura daxil olub iltihab yarada bilir. Nəticədə silikonun vurulduğu nahiyədə deformasiya yaranır. Əyilmə əmələ gəlir, irinləyir, axıntı verir. Beləliklə, xəstə özünə gözəllik əvəzinə, yeni bir problem qazanmış olur" - deyə o, vurğuladı.

Onu da qeyd edək ki, Azərbaycanda bir sıra aktrisa, müğənnilər bədənlərinin müxtəlif nahiyələrinə silikonlar vurdururlar. Onların bir qismi silikonun zərərini vaxtında anlayıb onu çıxartdırırlar. Mütəxəssislər bildirirlər ki, dodağa, yanağa vurulan silikonlar problemlərə səbəb olduğu üçün, bu istiqamətdə müraciətlər daha çoxdur. Yəni bu insanlar silikondan istifadə edirlər.

Bu gün bəzi qadınlar silikonların yaratdığı fəsadlar nəticəsində ağır xəstəliyə tutulublar. Xalq artisti Naibə Allahverdiyevanın səhhətində yaranan ciddi problemin məhz silikonla bağlı baş verdiyi bildirilir. İndiyə qədər silikon çox insana ağır vəsadlar yaşadıb. Amma qadınlar bunu bilə-bilə yenə də özlərini "oda" atırlar.

Həkim-terepevt Leyla Bayramlı bizimlə söhbətində bildirdi ki, bu gün silikon qoyduran qadınların çoxu bu addımı atdıqları üçün peşman olduqlarını deyirlər. L.Bayramlının sözlərinə görə, bədənə daxil olan silikonlar çox zaman özləri ilə böyük bəlalar gətirirlər. "Qadınlar heç bir araşdırma aparmadan bədənlərinin əyər-əskiklərini düzəltmək üçün estetik cərrahlara müraciət edirlər. Elə adam var ki, onun bədəninə silikon yerləşdirmək olmaz. Amma o, israrla həkimi məcbur edir ki, əməliyyat aparmalısan. Bu da çox zaman elə insanların əlavə xəstəliklər qazanmasına səbəb olur. Gizlin deyil, silikon çox insanın sağlamlığını əlindən alıb və onları müxtəlif xəstəliklərə düçar edib. Qadınların xeyli hissəsi yaşlanmaları ilə barışmaq istəmir. Bədənlərinin ayrı-ayrı üzvlərinə, eləcə də dodaqlarına, yanaqlarına silikonlar vurdururlar. Bəzən görürsünüz ki, silikonlu qadınlar sonradan bu addımı atıqlarına peşman olduqlarını deyirlər. Çoxları dodaq, yanaq nahiyələrindən silikonları çıxarırlar, deyirlər ki, silikon qoyulan nahiyələri, ümumiyyətlə, hissiyyatsız olub, silikondan azad olunduqdan sonra isə həmin nahiyələrin hissiyyatı özünə qayıdır.

Bilirsiniz ki, şou-biznesdə silikonlulular həddən artıq çoxdur. Maraqlıdır ki, bir-iki sənətçini çıxmaq şərtilə onların çoxu "mən silikon qoydurmamışam, öz bədənimdir" deyirlər, amma müxtəlif xəstəliklər tutduqdan sonra etiraf etməyə başlayırlar. Təəssüf ki, dünyada silikonun aldığı canlar az deyil, məncə, estetik gözəllikdən öncə insan üçün ən vacib olan sağlamlıqdır" - deyə mütəxəssis qeyd etdi.

*Leyla QARAXANLI*

№ 169 (4067) ■ Qiymәti: 40 qәpik

BAKI XƏBƏR

24 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# Antarktidada qәdim insan sümüklәri tapıldı

**Alimlәr Antarktidada qәdim insan sümüklәri tapıblar. "Ölkә.az" bildirir ki, 1800-cü ilin әvvәllәrindә tәdqiqatçılar tәrәfindәn kәşf olunan Antarktida indiyә qәdәr әn sirli qitә olaraq qalır.**

Anraktida haqqında "Üçüncü Reyx" in gizli bazası, itkin ekspedisiyalar vә hәtta yadplanetlilәr haqqında әfsanәlәrlә dolu qәribә hekayәlәr dolaşmaqdadır. Bu qalın buz qatı, hәqiqәtәn, nә gizlәdir? 2015 - ci ildә NASA-nın alimlәri Antarktidada meteoriti tapıblar. Fәrziyәyә görә, o 13000 il bundan әvvәl Mars planetindәn yerә düşüb. Bu yaxınlarda qazıntılar zamanı arxeoloqlar qeyri-adi formalı uzunsov insan kәllәlәri aşkar ediblәr. Alimlәr hesab ediblәr ki, qәdim zamanlarda insanlar Antarktidada mәskunlaşmayıblar. Bundan başqa, tәdqiqatçılar 1990-cı illәrin әvvәllәrindә Antarktidada dinozavrların qalıqlarını da aşkar etmişdilәr. Onların iddiasına görә, bu qitәdә 200 milyon il әvvәl canlı hәyat olub. Buna misal olaraq, Antraktidada piramidaların olduğunu dәlil gәtirirlәr.



## Elan

Әliyeva Bahar Әlirza qızının adına, Abşeron rayonu, Novxanı qәsәbәsindә 30 sot torpaq sahәsinә aid sәnәdlәr (kupça, çıxarış) itdiyinә görә etibarsız sayılır.

Şәki şәhәr sakini (ünvan: H.Cavid küçәsi, ev 12.) Gülmәmmәdov Әlәmmәd Balammәd oğlunun adına verilmiş ev qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Hüseynzadә Könül Sәmidxan qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Abışova Zümrüd Şәfa qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mustafayev Asif Sәbuhi oğluna Bakı Mühәndislik Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Axundzadә Anar Xalıq oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Axundova Sevil Abas qızının adına, Abşeron rayonu, Pirәkeşkül qәsәbәsindә yerlәşәn torpaq sahәsinә verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Şәfizadә Tural İmran oğlunun adına, Bakı şәhәri, Binәqәdi rayonu, 8 mikrorayon, S.S.Axundov küçәsi, ev 3, mәnzil 20 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Xatun Kamil qızının adına, Abşeron rayonu, Hövsan Südçülük sovxozunda yerlәşәn torpağın texniki pasportu, çıxarışı vә alqı-satqı müqavilәsi itdiyi üçün etibarsız sayılır.

Ağayeva Elnarә Hәsәnağa qızının adına, Abşeron rayonu, Pirәkeşkül qәsәbәsindә yerlәşәn torpaq sahәsinә verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Vәliyeva Hökümә Şәmşәd qızına mәxsus, Abşeron rayonu, Masazır kәndindә yerlәşәn 0,09 ha torpaq sahәsinin reyestr № 308013035666 çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Tamilla Әli Sәttar qızının adına, Bakı şәhәri, Xәzәr rayonu, Şüvәlan qәsәbәsindә yerlәşәn 262 saylı bağ sahәsinә verilmiş müqavilә № 107 itdiyi üçün etibarsız sayılır.

Sәmәd Zadә Qasım Musa oğluna mәxsus, Bakı şәhәri, Buzovna qәsәbәsi, Ağamalıoğlu küçәsi, ev №61 ünvanın qeydiyyat vәsiqәsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Әhmәdov Nuri Ağamirzә oğlunun adına, Bakı şәhәri, Sәbayıl rayonu, Bülbül prospekti, ev 14/70, mәnzil 24 ünvanının çıxarışı (seriya RX № 0066628) vә texniki pasportu itdiyi üçün etibarsız sayılır.

## "Nar"tәlәbәlәr üçün tәqaüd proqramı elan edir!

**Ölkәdә informasiya texnologiyaları sahәsindә yüksәk ixtisaslı mütәxәssislәrin yetişdirilmәsini hәr zaman diqqәt mәrkәzindә saxlayan "Nar"mobil operatoru Naxçıvan Dövlәt Universiteti ilә әmәkdaşlıq çәrçivәsindә tәlәbәlәr üçün tәqaüd proqramı elan edib.**

Universitetin informasiya texnologiyaları vә informatika ixtisasları üzrә tәhsil alan tәlәbәlәri tәqaüd proqramında iştirak edә bilәrlәr. Bu tәqaüd proqramı çәrçivәsindә 2019-2020-ci tәdris ilindә müvafiq ixtisaslardan olan vә dәrslәrindә yüksәk göstәricilәrә malik 5 tәlәbәyә aylıq tәqaüd verilәcәk.

Xatırladaq ki, "Nar" artıq ikinci ildir rabitә sahәsindә gәlәcәyin yerli peşәkarlarının yetişdirilmәsinә dәstәk mәqsәdilә naxçıvanlı tәlәbәlәr üçün tәqaüd proqramı tәşkil edir.

"Nar" KSM startegiyası çәrçivәsindә müxtәlif yaş qruplarından vә sosial tәbәqәlәrdәn olan şagird vә tәlәbәlәrin maariflәndirilmәsi, dünyagörüşünün artırılması vә analitik düşüncә qabiliyyәtinin inkişafı istiqamәtindә bir çox layihәyә imza atıb. Eyni zamanda, informasiya texnologiyaları sahәsinin daha da güclәndirilmәsi vә tәşviqi üçün mobil operator tәhsil müәssisәlәri ilә dә әmәkdaşlıq edir. Belә ki, Azәrbaycan Texniki Universiteti vә ADA Universiteti ilә tәlәbәlәrin praktiki biliklәrinin inkişafına yönәlik uzunmüddәtli layihәlәr hәyata keçirilir. "Nar"ın KSM layihәlәri barәdә daha әtraflı mәlumatı nar.az sәhifәsindәn әldә edә bilәrsiniz.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,6%-ni әhatә edir vә 8000-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir. 2017-ci ildә keçirilmiş mobil rabitә şәbәkәlәrinin müqayisәli testlәrinә әsasәn, "Nar" şәbәkәsi mobil zәng xidmәtlәrinin göstәrilmәsi üzrә ölkәdә әn yüksәk nәticәyә nail olub.





**Qoç** - Günün birinci yarısı aldığınız xoşagәlmәz xәbәr sizi çaşdıracaq vә sәhv qәrar qәbul etmәyinizә sәbәb olacaq. Ağlınızı başınıza yığın, soyuqqanlı olun, yoxsa bu şәraitdәn çıxmaq çәtin olacaq.



**Buğa** - Günün emosional fonu gәrgindir, siz әsәbi vә narahatsınız. Әtrafınızdakılarla ümumi dil tapmaq çәtindir, ailә üzvlәri vә yaxınlarınızla fikir ayrılığı yaranır. İnsanlar sizә nә qәdәr çox maraq göstәrirlәrsә, bir o qәdәr çox әsәblәşirsiniz.



**Әkizlәr** - Bu gün sürpriz qonaqlıqlar günüdür. Olsun ki, heç gözlәmәdiyiniz adamlar sizә qonaq gәlsinlәr, yaxud da siz kimisә yoluxmağa qәrar verәsiniz. İdeyalarınız nә qәdәr cәsarәtlidirsә, başqalarının tәqdirini qazanmaq şansları da bir o qәdәr çoxdur.



**Xәrçәng** - İstәnilәn iş bu gün faydalı olacaq. İntellektual potensialınız yüksәkdir. Bu, әn mürәkkәb mәsәlәlәri hәll etmәkdә sizә kömәk edәcәk. Siz şәksiz lidersiniz, bunu bu gün görüşәcәyiniz bütün şәxslәr sezәrәk qiymәtlәndirәcәklәr.



**Şir** - Qeyri-adi, heyrәtamiz hadisәlәr baş verәcәk. Hәyat tamamilә başqa bir axarla davam edir vә bundan qorxmaq lazım deyil. Öz intuisiyanıza güvәnin, mәhz o, sizә dәyişikliklәrә necә uyğunlaşmağı diktә edәcәk.



**Qız** - Maliyyә problemlәri mümkünür. Düzdür, çox pul itirmәyәcәksiniz, amma onlar lazım olan anda әlinizdә olmayacaq. Sizin bütün hәyatınızdan xәbәri olan bir şәxslә mәslәhәtlәşmәyiniz vacibdir.



**Tәrәzi** - İntellektual işlәr, mürәkkәb mәsәlәlәrin hәlli üçün münasib gündür. Komandada iş çox mәhsuldar olacaq, tәrәfdaşlarınızın kömәyindәn istifadә edәrәk istәnilәn problemi vaxtında hәll edә bilәcәksiniz.



**Әqrәb** - Tәntәnәli vә әylәncәli tәdbirlәrin planını hazırlaya bilәrsiniz: asudә vaxtı keçirmәk üçün orijinal üsullar tapacaqsınız. Eyni zamanda, maliyyә vәziyyәtiniz dә qәnaәtbәxşdir, müsbәt emosiyalar üçün pul sәrf etmәyә dәyәr.



**Oxatan** - Ciddi emosional problemlәr yaşayacaqsınız. Özünüzlә bacara bilmirsiniz, yaxın adamlarınız, xüsusәn dә qadınlar odun üzәrinә yağ tökmәklә şәraiti daha da gәrginlәşdirirlәr.



**Oğlaq** - Bu gün yaman mәrhәmәtlisiniz, kimәsә kömәk etmәk, xeyriyyәçilik aksiyalarına qatılmaq, sosial problemlәri hәll etmәk hәvәsindәsiniz. İctimai vә siyasi fәaliyyәtә marağınız artır, bu gün bu istiqamәtdә öz gücünüzü sınaya bilәrsiniz.



**Dolça** - Bu gün intuisiyanız sizi darda qoymayacaq. Bәzi Dolçalar isә özlәrindә ekstrasens qabiliyyәtlәri aşkar edәcәk vә buna heyrәtlәnәcәklәr. Unutmayın: bu gün baş verәn bütün hadisәlәrә xüsusi diqqәt yetirmәk lazımdır.



**Balıqlar** - Faydalı müzakirәlәr günüdür. Sizә deyilәn hәr kәlmәni yadda saxlamağa çalışın: bu gün sizә vecsiz, adi görünәn mәlumat, әslindә, çox vacibdir. Şou-biznes vә yaradıcılıqla mәşğul olan Balıqlar üçün gün xüsusilә uğurludur.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Türkiyәdә avtomatik dua oxuyan "Duamatik" icad olundu

**Bursanın İnegöl qәsәbәsindә yaşayan Tayfun Ertürk mәzarını tez-tez ziyarәt edә bilmәdiyi vәfat etmiş anasını yuxuda görüncә "Duamatik" adlanan uzaqdan idarә olunan cihaz icad edib.**



"Ölkә.az" bildirir ki, Ertürk sözügedәn cihazı ana vә atasının mәzarları olan Şәhidlәr Mәhәllәsi qәbirstanlığına quraşdırıb. Cihaz günәş enerjisi ilә işlәyir vә hәr hәftәnin cümә axşamı günü işә düşәrәk "Yasin" surәsini vә digәr duaları oxuduqdan sonra öz-özünә bağlanır. Dualar isә dinamiklәr vasitәsilә bütün mәzarlığa yayılır. Tayfun Ertürk dәstә olarsa, bu cihazı kütlәvi şәkildә istehsal edә bilәcәyini deyib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.